

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 37 (677) ■ 25 sentyabr 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyevin Quba rayonuna səfəri

*Sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Quba rayonuna gəlmişdir. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə Quba şəhərinin mərkəzindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkında ulu öndərin abidəsini ziyarət etmişlər.*

Quba Soyqırımı Memorial Kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyevə bildirilmişdir ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilmişdir. 2009-cu ildə Nazirlər Kabinetinin sərəncamı ilə «Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı» təsdiq edilmiş, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksindəki bütün bölmələr və eksponatların yanında quraşdırılan xüsusi audiobələdçi qurğuları vasitəsilə ingilis, rus və Azərbaycan dillərində ətraflı məlumat almaq mümkündür. Aşkar olunmuş kütləvi məzarlığın ümumi sahəsi 514 kvadratmetrdir. Onun 494 kvadratmetrlik hissəsində tədqiqat işləri aparılsa da, 20 kvadratmetr ərazi beynəlxalq tədqiqat işləri üçün saxlanılmışdır. Kompleksin 3,5 hektarlıq ərazisində geniş quruculuq işləri görülmüşdür. Quba Soyqırımı Memorial Kompleksində rəmzi məzarlıq sahəsi yaradılmışdır. Qalereyada yaradılan inzibati binanın tikinti sahəsi 320 kvadratmetrdir. Burada zəngin kitab fondu ilə təchiz olunmuş kitabxana, arxiv və digər inzibati otaqlar vardır.

Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı Quba rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Prezident İlham Əliyev bildirmişdir ki, Quba Soyqırımı Abidə-Memorial Kompleksinin yaradılması tarixi məna daşıyır. İlk dəfə olaraq Azərbaycanda belə memorial kompleks yaradılır və bu yaddaş daim bizim qəlbimizdə yaşayacaqdır. Qeyd olunmuşdur ki, yaxın tariximizin bir çox dövrlərində ermənilər tərəfindən xalqımıza qarşı böyük cinayətlər törədilmişdir. Bu gün Azərbaycan dövləti və Azərbaycanda fəaliyyət göstərən ictimai qurumlar, ilk növbədə Heydər Əliyev Fondu ermənilərin törətdiyi cinayətlərin, Xocalı qətliamının dünyada soyqırımı kimi tanıdılmasında çox böyük işlər görür.




Prezident İlham Əliyev Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə də iştirak etmişdir. Dövlətimizin başçısına məlumat verilmişdir ki, layihə dövlət büdcəsi hesabına maliyyələşdirilmiş və işlər 22 ay müddətində başa çatdırılmışdır. Layihəyə əsasən, Quba şəhərini və ətraf yaşayış məntəqələrini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin etmək üçün su mənbəyi Qudyalçay seçilmişdir. Layihə çərçivəsində Quba şəhərində ümumi uzunluğu 190 kilometr olan paylayıcı su şəbəkəsi yaradılmış, 9525 ünvana ev birləşmələri verilmiş, 8900 abunəçi «smart-kart» sayğacı ilə təmin olunmuşdur. Layihəyə uyğun olaraq, Quba şəhərində 216 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi yaradılmış və bütün ünvanlar şəbəkəyə qoşulmuşdur.

Quba Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak edən dövlətimizin başçısı Quba Gənclər Mərkəzinin istifadəyə verilməsi mərasiminə də qatılmışdır. Qeyd olunmuşdur ki, dövlət gənclərlə bağlı çox mühüm işlər görür, hazırda «Azərbaycan gəncliyi 2011-2015-ci illərdə» Dövlət Proqramı uğurla həyata keçirilir. Əsas məqsəd gənclərin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri və gənclər mərkəzləri yaradılır. Quba rayonunda da Gənclər Mərkəzinin yaradılması bu məqsədə xidmət edir.

Azərbaycan Prezidenti həmin gün Qubada Heydər Əliyev adına mədəniyyət və istirahət parkında inşa olunmuş «Yaşıl teatr»ın açılışında iştirak etmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həm respublika, həm də rayon səviyyəli mədəni-kütləvi tədbirlərin keçirilməsi məqsədilə yaradılan teatrın tikintisinə bu ilin əvvəlində başlanılmışdır. Teatrın tamaşa zalı 1000 nəfərlikdir. «Yaşıl teatr»da ən son texnologiyalara əsaslanan səs və işıq sistemləri qurulmuşdur.

Sonra Prezident İlham Əliyev Qubanın Qırmızı qəsəbəsində yeni salınmış Heydər bağında yaradılan şəraitlə tanış olmuşdur. Qəsəbə sakinləri ilə görüşən dövlətimizin başçısı qeyd etmişdir ki, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bu ümumi inkişafa öz töhfələrini verirlər. Dağ yəhudiləri də öz işi, əməyi, Vətənə olan sədaqəti ilə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində çox böyük işlər görmüşlər. Həm burada, həm başqa ölkələrdə yaşayan, amma qəsəbə ilə əlaqəni qırmayan vətəndaşlarımız Azərbaycanın inkişafına öz dəyərli töhfələrini verirlər.

Azərbaycan Prezidenti İlham Əliyev Qırmızı qəsəbə ərazisində, Qudyalçay üzərindəki tağlı «Qırmızı körpü»nün yenidənqurmadan sonrakı vəziyyəti ilə də tanış olmuşdur. Bildirilmişdir ki, körpü ilə sakinlər Qırmızı qəsəbədən qısa yolla Quba şəhərinə gedə bilirlər. Körpünün uzunluğu 160, eni 7,6 metr, bünövrədən hündürlüyü isə 7,39 metrdir. Təbii aşınmalar nəticəsində tağlarda yaranmış zədələrə görə körpüdə hərəkət xeyli müddət dayandırılmışdı. Lakin 2012-ci ilin əvvəlindən əsaslı təmirə başlanaraq tağlarda, bünövrədə bərpa və bərkitmə işləri aparılmışdır.

Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak edən Prezident İlham Əliyev sonra Bakı Dövlət Universitetinin tədris-təcrübə və istirahət mərkəzinin və Azərbaycan Dövlət İqtisad Universitetinin tədris, idman və istirahət kompleksinin istifadəyə verilməsi mərasimlərinə də qatılmışdır.

Dövlətimizin başçısı Qubaya səfəri çərçivəsində rayonun Əski-İqriq kəndində beşulduzlu «Rixos Quba Azerbaijan» otelində görülən işlərlə tanış olmuş, Azərbaycan Milli Qolf Klubunun açılışında iştirak etmişdir. Bildirilmişdir ki, Azərbaycanda idmanın bütün növlərinin inkişafı diqqət mərkəzindədir.

Qubada yeni yaradılan qolf sahəsinin ümumi ərazisi 92 hektar, meydançanın sahəsi isə 75 hektardır. İnzibati bölmədə idman avadanlığı mağazası və kafe vardır. Cənubi Qafqazda bənzəri olmayan bu idman qurğusu regionda 18 dəlikli ilk qolf meydançasıdır. Kompleksin ərazisində su maneələri üçün üç süni göl yaradılmışdır. Burada həm də qolf üzrə müxtəlif treninqlərin keçirilməsi nəzərdə tutulur.

# Müasir standartlara cavab verən gəmiqayırma zavodu istifadəyə verilmişdir

*Sentyabrın 20-də Bakının Qaradağ rayonunda müasir standartlara cavab verən gəmiqayırma zavodunun açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

Dövlətimizin başçısına bildirilmişdir ki, zavodun tikintisi və istismarı işlərinin həyata keçirilməsi məqsədilə ARDNŞ, Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və Sinqapurun «Keppel Offshore & Marine» şirkəti tərəfindən «Bakı gəmiqayırma zavodu» MMC birgə müəssisəsi yaradılmışdır. Təsisçilər arasında 2010-cu il dekabrın 10-da imzalanmış razılaşmaya əsasən ARDNŞ, AİŞ və Keppel zavodun nizamnamə kapitalında müvafiq olaraq 65 faiz, 25 faiz və 10 faiz paya malikdirlər. Zavod Qaradağ rayonu ərazisində, Bakı-Astara magistral yolunun 25-ci kilometrliyində Keppel, Böyük Britaniyanın «Royal Haskoning» və Norveçin «TTS Handling System AS» şirkətlərinin birgə hazırladıqları konseptual layihə əsasında Dövlət Neft Şirkətinin «Neftqaztikinti» Tresti tərəfindən inşa edilmişdir.



Qeyd olunmuşdur ki, zavod Finlandiya, Niderland, Almaniya, Çex Respublikası, Böyük Britaniya, Koreya Respublikası və Sinqapurda yüksək standartlar səviyyəsində istehsal olunan avadanlıqla təchiz edilmişdir. İstehsal prosesində metalkəsmə, profiləymə, lövhəəymə, 3D borukəsmə rəqəmsal avadanlığı kimi müasir texnoloji vasitələrdən istifadə olunacaqdır. Müəssisə artıq ilk sifarişini qəbul etmişdir. Yeni layihə «Caspian Drilling Company LTD» tərəfindən verilən yarımqazma qurğusu - DSS 38M-dir. Gəmiqayırma zavodunda qurğunun pantonunun göyərtəsi, eyni zamanda, yuxarı göyərtə hazırlanacaqdır.

Ümumi ərazisi 62 hektar olan müəssisədə 1630 metr uzunluğunda yanalma körpüsü, beşmərtəbəli inzibati bina, təlim mərkəzi, müxtəlif ofislər və anbarlar, istehsal və təmir-ötürmə sahələri, yeməkxana, tibb məntəqəsi, kompressor, zavodun elektrik təchizatının etibarlı təminatı üçün yarımstansiya binaları tikilmişdir. Zavod ildə 25 min ton metal konstruksiya istehsal etmək gücünə malikdir. İstehsal imkanlarına görə Xəzər dənizi hövzəsində analoqu olmayan bu müəssisədə ildə 15 min ton yükgötürmə qabiliyyəti olan dörd və ya 70 min ton yükgötürmə qabiliyyəti olan iki tanker və dörd özül təchizat gəmisi tikmək, müxtəlif təyinatlı 80-100 gəmini təmir etmək mümkün olacaqdır. Müəssisədə 50 ton yükdartma gücünə malik ilk yedək gəmisi inşa edilmişdir.

Gəmiqayırma zavodu tam fəaliyyətə başlayandan sonra burada1250 nəfər işçi çalışacaqdır. Gələcəkdə isə işçilərin sayının 2000 nəfərə çatdırılması nəzərdə tutulur. Müəssisənin idarə edilməsi məqsədilə xüsusi təlim mərkəzi yaradılmışdır. Test üsulu ilə seçilən bir qrup gənc mütəxəssis Keppel şirkətinin Sinqapurda yerləşən zavodlarında 6-8 ay müddətində təlim və peşə hazırlığı kursları keçmişdir. Kadr hazırlığı işi bundan sonra da davam etdiriləcək və gələcəkdə zavodda işləyənlərin ən azı 95-98 faizi yerli mütəxəssislərdən ibarət olacaqdır.

Prezident İlham Əliyev mərasimdə çıxış etmişdir.

**rəsmi xronika**

## Azərbaycanda kitabxana işinə böyük önəm verilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Avropa Milli Kitabxanaları Konfransının prezidenti Bruno Rasineni və Avrasiya Kitabxanalar Assambleyasının vitse-prezidenti Qulisa Balabekovanı qəbul etmişdir. Avropa Milli Kitabxanaları Konfransının növbəti toplantısının Azərbaycanda keçirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı tədbirdə dünyanın müxtəlif ölkələrini təmsil edən nümayəndələrin iştirakının önəmini qeyd etmişdir. Prezident İlham Əliyev konfransda müzakirə olunacaq məsələlərin kitabxana işinin inkişaf etdirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə etmişdir. Dövlətimizin başçısı qonaqların ölkəmizə bu səfərinin Azərbaycan ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirmişdir.

Ölkəmizə ilk səfərlərindən məmnunluğunu bildirən Avropa Milli Kitabxanaları Konfransının prezidenti Bruno Rasine Bakının mərkəzində Azərbaycan Milli Kitabxanasının binasının onlarda dərin təəssürat yaratdığını demişdir. III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılış mərasimində və Azərbaycan Milli Kitabxanasının 90 illik yubiley tədbirində iştirak edəcəklərini vurğulayan qonaq Avropa Milli Kitabxanaları Konfransının növbəti toplantısının Bakıda keçirilməsinin əhəmiyyətini qeyd etmişdir.

## Ölkəmizdə müasir idman infrastrukturu yaradılmışdır

Azərbaycanın dövlət başçısı İlham Əliyev UEFA-nın prezidenti Mişel Platinini qəbul etmişdir. Görüşdə Azərbaycanda idmanın müxtəlif növlərinin inkişaf etdirilməsi ilə bağlı görülən işlərin önəmi qeyd olunmuş, müasir idman infrastrukturunun yaradılması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər yüksək qiymətləndirilmişdir. Söhbət zamanı Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlığa, ölkəmizdə futbolun inkişafı istiqamətində islahatların aparılmasına dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

2 İnsan resurslarının inkişafı əsas hədəflərdən biridir

3 Azərbaycan makroiqtisadi sabitlik səviyyəsinə görə ilk onluqda...

5 Azərbaycan dinamik iqtisadi inkişafı ilə regionun liderinə çevrilib

5 İpoteka kreditlərinin şərtləri sadələşdiriləcək

# Qazaxıstan nümayəndə heyəti Azərbaycanda səfərdədir

*Qazaxıstan Maliyyə Nazirliyinin Vergi Komitəsinin Vergi auditi idarəsinin rəisi Aydar Mekebekovun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 23-dən Azərbaycanda işgüzar səfərdədir.*

Səfərdə məqsəd Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə qarşılıqlı faydalı əməkdaşlığı, təcrübə mübadiləsini genişləndirmək, habelə tətbiq edilən innovativ texnologiyalarla yaxından tanış olmaqdır.

Səfər çərçivəsində Qazaxıstan nümayəndə heyətinin üzvləri Vergilər Nazirliyinin ayrı-ayrı idarələrində görüşlər keçirmişlər. Qonaqlara Azərbaycanın vergi sistemi, o cümlədən vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə tətbiq edilmiş elektron xidmətlər barədə ətraflı məlumat verilmişdir. Nümayəndə heyətinin üzvləri Azərbaycanın vergi orqanlarının fəaliyyətindəki mütərəqqi yenilikləri yüksək dəyərləndirmiş, xüsusən də elektron audit layihəsinə böyük maraq göstərmişlər.

Sentyabrın 26-dək davam edəcək səfər çərçivəsində qazaxıstanlı qonaqlar Vergilər Nazirliyinin digər strukturlarının fəaliyyəti ilə də tanış olacaq, vergi sahəsindəki yeniliklərlə bağlı təqdimatları izləyəcəklər.

# Moldovanın «Monitorul Fiskal» jurnalı Azərbaycanın vergi sistemi haqqında

*Moldovanın «Monitorul Fickal» jurnalının bu günlərdə nəşr olunan növbəti sayında «Azərbaycan Respublikası Vergilər Nazirliyi - vergi sistemi inzibatçılığının səmərəli nümunəsidir» adlı geniş yazı dərc olunub.*

Müəllifləri Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Vergi Müfəttişliyinin Fiziki şəxslərin vergiyə cəlb edilməsi idarəsinin rəisi Maya Tverdoxleb və Birbaşa vergilərin inzibatçılığı idarəsinin rəisi Veronika Vragalevanın olduğu yazıda respublikamızın vergi sisteminin keçdiyi yola nəzər salınır, ötən illər ərzində həyata keçirilən və hazırda davam etdirilən islahatların əhəmiyyətinə toxunulur, həmçinin Vergilər Nazirliyinin qurduğu müasir və çevik idarəetmənin səmərəliliyindən bəhs edilir.

Qeyd olunur ki, Azərbaycanın vergi sistemində son illərdə aparılan sistemli, davamlı islahatlar vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin genişlənməsinə səbəb olub.Vergi inzibatçılığının bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, vergilərin ödənişi ilə bağlı texniki potensialın gücləndirilməsi və aktiv vergi siyasəti bu sahədə əhəmiyyətli müsbət dəyişikliklərə gətirib çıxarıb. Regionlarda yeni iş yerlərinin açılması, kiçik və orta biznesin əhatə dairəsinin genişlənməsi, sənayeləşmə siyasəti və digər tədbirlər vergi daxilomalarının həcminin artmasına imkan verib. Ölkədə «bir pəncərə» sisteminin tətbiq olunması, sahibkarlıq subyektlərinin qeydiyyatı prosesinin sadələşdirilməsi biznes sektorunda fəallığı yüksəldib, sahibkarların sayı əhəmiyyətli dərəcədə artıb və bu amil vergi gəlirlərinə müsbət təsir göstərir.

«195» Çağrı Mərkəzinin fəaliyyətinə toxunan moldovalı vergi orqanı əməkdaşları mərkəzin vergi ödəyicilərinin və digər vətəndaşların vergi qanunvericiliyi və onun tətbiqi, Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlər barədə operativ, düzgün, vergi orqanlarına gəlmədən məlumat almalarını, eyni zamanda vergi qanunvericiliyinin pozulması halları barədə müraciətlərin qəbulunu təmin etdiyini bildirirlər. Bu xidmət vasitəsilə Bakı şəhəri ilə yanaşı, respublikanın bütün regionlarından daxil olan müraciətlərin qəbulu həyata keçirilir. O da qeyd olunur ki, nazirliyin 2006-cı ildən tətbiq etdiyi Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) ən son texnologiyalardan istifadənin nümunəsidir. Bundan başqa, e-xidmətlərin ən mühüm istiqamətlərindən biri nazirliyin saytıdır. Saytda elektron xidmətlərə aid xüsusi bölmə yaradılıb. Bölməyə müraciət edən şəxslər tərəfindən doldurulmuş ərizə və digər sənədlərin surətlərinin elektron formada qəbulu, bununla bağlı təsdiqetmə bildirişinin göndərilməsi təmin olunub.




M.Tverdoxleb və V.Vragaleva onu da bildirirlər ki, Vergilər Nazirliyi rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin və elektron xidmət bölməsi vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyinin təmin olunması məqsədilə zəruri texniki tədbirlər həyata keçirib. Elektron bəyannamə sisteminin, elektron vergi hesab-fakturalarının, e-auditin tətbiqi də bu sahədə aparılan vacib islahatlardandır. Müəlliflər vergi sistemində insan resurslarının inkişafına yüksək diqqət göstərildiyini, bu məqsədlə Tədris Mərkəzinin yaradıldığını və burada ən müasir təlim-tədris vasitələrindən istifadə olunduğunu, eləcə də vergi ödəyicilərinə daha keyfiyyətli xidmətlər göstərmək məqsədilə regionlarda, xüsusilə vergi orqanı olmayan iri şəhər və rayonlarda Vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılmasına da diqqət çəkirlər.

Yazı müəllifləri onu da bildirirlər ki, Azərbaycan Respublikasının Vergilər Nazirliyi Avropanın ən qabaqcıl vergi inzibatçılığı təcrübəsini öyrənib tətbiq edən qurumdur. Ölkəmiz MDB-də vergi inzibatçılığının funksional və mütərəqqi sisteminin bariz nümunəsini yaradıb. Respublikamızın vergi sistemində ən müasir texnologiyaların tətbiq edilməsi, avtomatlaşdırılmış vergi informasiya strukturunun formalaşdırılması, bəyannamələrin elektron formada təqdim olunması, elektron audit və digər yeniliklər Moldovanın vergi sistemi üçün də böyük maraq doğurur.

Azərbaycanın Vergilər Nazirliyi ilə sıx və səmərəli əməkdaşlıq edən Moldova Baş Dövlət Vergi Müfəttişliyi bir sıra sahələrdə fəal təcrübə mübadiləsi aparır. Tərəflər arasında 2000-ci ildən tətbiq olunan investisiyaların təşviqi, gəlirlərə və əmlaka görə ikiqat vergitutmanın aradan qaldırılması, digər sahələr üzrə çox vacib sənədlərin imzalanması bu münasibətlərin daha da inkişaf etməsinə səbəb olub. Son illər əməkdaşlıq yeni sahələri əhatə etməyə başlayıb və bura vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılması, vergi fırıldaqçılığına və vergilərin ödənilməsindən yayınma hallarına qarşı mübarizənin səmərəliliyi, vergilərin məcburi tutulması və vergi borclarının yaranmasının qarşısının alınması mexanizminin təkmilləşdirilməsi ilə bağlı istiqamətlər daxildir. Moldovanın vergi orqanı, həmçinin, elektron bəyannamələr sahəsində qarşılıqlı təcrübə mübadiləsi ilə bağlı əməkdaşlığa da böyük önəm verir.

**E.CƏFƏRLİ**

# «Vergi dostları»na sertifikatlar təqdim olunub

*Sentyabrın 17-də Füzuli rayonunun Horadiz qəsəbəsində və Bərdə şəhərində vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini gücləndirmək, vətəndaşlarda yüksək vergi mədəniyyətini formalaşdırmaq və bu işə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə seçilmiş ümumtəhsil məktəblərinin müəllimlərinə «Vergi dostu» sertifikatı və kompüterlərin təqdim edilməsi ilə bağlı tədbir keçirilmişdir.*




Horadizdə təlimi müvəffəqiyyətlə başa vurmuş 40, Bərdədə isə 111 «vergi dostu»na üzvlük sertifikatı, «vergi dostu»nun yaddaş kitabçası və kompüterlər təqdim olunmuş, onlar əməkdaşlıq barədə öhdəlik vərəqələrini imzalamışlar.

Sentyabrın 19-da isə Şəmkir şəhərində 164 «vergi dostu»na sertifikatların təqdim edilməsi ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə iştirak edən vergilər nazirinin müşaviri Ələkbər Məmmədov nazirlik tərəfindən ərazi vergilər idarələrinin və vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzləri istisna olmaqla, kənar kənd və qəsəbələrdə «Vergi dostları» şəbəkəsinin yaradılması barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, indiyədək respublika üzrə 907 nəfər müəllimə müvafiq təlim keçilmiş və onlara «Vergi dostu» sertifikatı təqdim olunmuşdur.

«Vergi dostu» olan şəxs yaşadığı ərazidə əhali arasında vergilərə dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirir, vergi sistemində tətbiq olunan elektron xidmətlər barədə vergi ödəyicilərini məlumatlandırır, uşaq və gənclərə vergilərin əhəmiyyətini izah edir.

Qeyd edək ki, hazırda «vergi dostları»nın sayı respublika üzrə 1071 nəfərə çatmışdır. Tədbirlərdə müvafiq rayonların icra hakimiyyətinin nümayəndələri, Vergilər Nazirliyinin vəzifəli şəxsləri və ictimaiyyətin müxtəlif təbəqələrindən nümayəndələr iştirak etmişlər.

**Azərbaycanın vergi sistemi: 2003-2013**

# İnsan resurslarının inkişafı əsas hədəflərdən biridir

*Qlobal inkişafın hazırkı mərhələsində insan amilinə, işçi qüvvəsinin keyfiyyətinin artırılmasına yönəldilmiş investisiyalar yüksək səmərəliliyi ilə diqqəti cəlb edir. Müasir dünyada idarəçilikdə uğuru şərtləndirən mühüm amillərdən biri də insan resursları strategiyasının düzgün qurulmasıdır.*

Son 10 ildə Azərbaycanın vergi sistemində həyata keçirilən islahatların praktik nəticələr verməsi, ilk növbədə, idarəetmə sisteminin peşəkar kadrlar hesabına komplektləşdirilməsi tədbirləri ilə bağlıdır.

Məhz bu mühüm amil Vergilər Nazirliyinin 2003-2013-cü illərdə idarəçilik sahəsində çevik, innovativ və keyfiyyətli xidmətləri ilə seçilən modern dövlət qurumuna çevrilməsini təmin etmişdir. Ötən 10 ildə nazirlikdə insan amilinin inkişafına xüsusi diqqət yetirilmiş, əməkdaşların bilik və bacarıqlarının, peşə vərdişlərinin təkmilləşdirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilmişdir.

2003-cü ildən vergi inzibatçılığının səmərəliliyinin artırılması məqsədilə vergi orqanları strukturlarının fəaliyyətinin qiymətləndirilməsinə, 2005-ci ildən, eyni zamanda, əməkdaşların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsinə başlanılmışdır. Kadr potensialının gücləndirilməsi məqsədilə 2005-ci ildə «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar 2005-2012-ci illərdə 8 müsabiqə keçirilmiş, 7982 nəfər imtahanlarda iştirak etmişdir. Onlardan 1469 nəfəri test mərhələsini, 1072 nəfəri isə müsabiqə mərhələsini uğurla keçmişdir. Sonuncu mərhələdə müsbət nəticə göstərən namizədlərin 751 nəfəri işlə təmin olunmuşdur. Digər namizədlər isə Vergilər Nazirliyinin kadr ehtiyatına daxil edilmişdir.

Nazirliyin kadr siyasətinin prioritet istiqamətlərindən biri də gender bərabərliyinin təmin olunması, vergi sistemində qadınlara kişilərlə bərabər şəraitin yaradılmasıdır. 2012-ci ildə Vergilər Nazirliyində, ümumilikdə, 2380 işçi - o cümlədən 18-35 yaş kateqoriyası üzrə 781 kişi və 113 qadın, 35-50 yaş kateqoriyası üzrə 923 kişi və 183 qadın, 50-dən yuxarı yaş kateqoriyası üzrə 518 kişi və 56 qadın çalışmışdır.

Vergi orqanları əməkdaşlarının öz fəaliyyətləri ilə ictimaiyyətin etimadını qazanmaları da əsas hədəflərdəndir. Vergilər Nazirliyinin 2008-ci il 7 fevral tarixli əmri ilə təsdiq edilmiş «Vergi işçisinin etik davranış Kodeksi» bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Kodeksdə qeyd olunur ki, nazirliyin hər bir əməkdaşı ona tapşırılmış işi səmərəli şəkildə və etik normalar çərçivəsində yerinə yetirməlidir.

Vergilər Nazirliyi kadrların hazırlığının artırılması sahəsində də kifayət qədər müsbət təcrübəyə malikdir. Bu məqsədlə vergi xidməti əməkdaşları müxtəlif tədris proseslərinə və seminarlara cəlb edilir, xarici ölkələrdə kurslara, treninqlərə göndərilir. Beynəlxalq təcrübənin öyrənilməsi baxımından seçilmiş gənc kadrlar üçün ingilis dili kurslarının təşkili də mühüm rol oynayır.

«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununa, Əmək Məcəlləsinə, «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»yə və Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi Qaydalarının təsdiq edilməsi barədə» müvafiq qərarına əsasən, 2010-cu ilin fevral ayından başlayaraq, 4 ay ərzində vergi orqanlarının vəzifəli şəxslərinin attestasiyası keçirilmişdir. Attestasiya Vergilər Nazirliyinin Aparatının, həmçinin müvafiq struktur vahidlərinin 1500-dək əməkdaşını əhatə etmişdir. Prosesə xüsusi diqqətlə yanaşılmış və onun tam şəffaf, açıq və obyektiv şəkildə keçirilməsi üçün maksimal şərait yaradılmışdır. Attestasiya zamanı vergi əməkdaşlarının əksəriyyəti yüksək bilik səviyyəsi nümayiş etdirmişlər. Bununla yanaşı, attestasiyanın yekunlarına görə 93 əməkdaşın vergi orqanlarında fəaliyyətinə xitam verilmiş, 6 nəfərin xidmət sahəsi dəyişdirilmiş, 4 nəfər nisbətən aşağı vəzifəyə keçirilmişdir. Attestasiya prosesində nəticələri qismən zəif olmuş 76 nəfər 1 ildən sonra təkrar attestasiyadan keçmək şərtilə tutduğu vəzifədə saxlanılmışdır.

***Vergi xidmətində informasiya texnologiyalarının tətbiqi sahəsində həyata keçirilmiş tədbirlər insan resurslarının inkişafına təkan verir***

qanlarında insan resurslarının inkişafı Konsepsiyası» qəbul edilmişdir. Hazırda vergi orqanlarında kadr hazırlığı prosesi həmin konsepsiya əsasında həyata keçirilir. Konsepsiyada nazirliyin İnsan resursları idarəsinin qarşısına vergi orqanı əməkdaşlarının vaxtaşırı rotasiyası, vəzifələr üzrə kadr ehtiyatının yaradılması, kadrların yenidən hazırlanması, onların bilik və peşəkarlıq səviyyəsinin yüksəldilməsi, fəaliyyətində fərqlənən işçilərin vəzifədə irəli çəkilməsi məqsədilə kadr (menecer) ehtiyatının yaradılması kimi mühüm vəzifələr qoyulmuşdur.

Vergilər Nazirliyinin kadr siyasəti sahəsində mühüm uğurlarından biri də işə qəbul sisteminin tamamilə şəffaflaşdırılmasıdır. 2005-ci ildən vergi xidmətinə işə qəbul test üsulu və müsabiqə yolu ilə həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli «Dövlət vergi orqanlarında işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə fərmanının icrası ilə əlaqədar 2005-ci ildə nazirlikdə Müsabiqə Komissiyası və işçi qrup yaradılmışdır. Eyni zamanda, bir sıra daxili normativ sənədlər - «Vergi orqanlarına işə qəbul olunmaq üçün namizəd olmaq istəyən şəxslərin sənədlərinin toplanması və yoxlanılması», «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi» Qaydaları təsdiq edilmişdir.

Namizədlərin sənədlərinin qəbulu 2008-ci ildən elektron formada - internet vasitəsilə həyata keçirilir. «İşə qəbulla əlaqədar elektron ərizə» proqram təminatı 2009-cu ildə tam yenilənmiş, sabit proqram təminatı kimi formalaşmışdır. İnformasiya texnologiyalarından geniş istifadə şəffaflığın artırılması və vətəndaşların rahatlığının təmin olunması ilə yanaşı, rayonlarda yaşayan gənclərin paytaxta gəlmədən sənədlərini təqdim etməsinə şərait yaratmışdır.

Bu sahədə tətbiq edilən mütərəqqi mexanizmlər işçi heyətin gənc və istedadlı kadrlarla zənginləşdirilməsi baxımından müsbət nəticələr vermişdir. Ümumilikdə, son illər vergi xidmətində informasiya texnologiyalarının tətbiqi sahəsində həyata keçirilmiş tədbirlər də insan resurslarının inkişafına təkan verir. Müasir biliklərdən, yeni proqram təminatlarından istifadə olunması, habelə yeni texnologiyaların mükəmməl səviyyədə mənimsənilməsi hazırda hər bir vergi işçisinin qarşısında duran mühüm məsələlərdəndir.

**Samir MUSTAFAYEV**

***(davamı növbəti sayımızda)***

# «Neft Daşları»ndan bəhs edən reportaj yayımlanmışdır

*Almaniyanın «Prosieben» televiziya kanalının «Qaliley» ensiklopedik proqramında Xəzər dənizindəki «Neft Daşları» haqqında reportaj yayımlanmışdır.*

Proqramın aparıcısı məlumat vermişdir ki, Avropa və Asiyanın qovuşduğu nöqtə olan Azərbaycanda yerləşən bu «üzən şəhər» açıq dənizdə ilk neftçıxarma platformasıdır. O, indi də ən böyük platformalardan biri olaraq qalır. Hazırda Azərbaycanın Almaniyaya ixrac etdiyi 2 milyon ton neftin bir hissəsi məhz «Neft Daşları»nda hasil olunur. «Neft Daşları»nın yaranma və inkişaf tarixinə dair qısa məlumat verən müəllifin «dünyanın səkkizinci möcüzəsi» adlandırdığı bu yerdə 2500 insanın çalışdığı qeyd olunur, neftçilərin, eləcə də digər peşə sahiblərinin məişət şəraitindən, asudə vaxtlarının təşkilindən bəhs edilir. Müəllif «Neft Daşları» platformasının normal yaşayış məskəninə bənzəməsindən təəccübləndiyini də gizlətmir. Eyni zamanda qeyd olunur ki, «Ceyms Bond» silsiləsindən «Dünya geniş deyil» adlı filmin bir epizodu da məhz burada çəkilmişdir. Tamaşaçıların diqqətinə çatdırılır ki, «Neft Daşları»nda hasil olunan neft dənizin dibi ilə boru kəmərləri vasitəsilə birbaşa Bakıya, oradan isə beynəlxalq kəmərlər vasitəsilə Rusiya, Gürcüstan və Türkiyəyə daşınır.

# Parlament payız sessiyasına hazırlaşır

*Milli Məclisin 2013-cü ilin payız sessiyasında müzakirəyə çıxarılacaq qanun layihələri artıq komitələrdə araşdırılır və parlamentin plenar iclaslarına təqdim edilməsi üçün hazırlanır. Əsasən iqtisadi sahəni əhatə edən qanun layihələri bu istiqamətdə inkişafı daha da sürətləndirmək, ortaya çıxan problemləri aradan qaldırmaq, özəl sektorun genişləndirilməsinə təkan vermək məqsədi daşıyır.*

## *Bu ilin sonunadək iqtisadi sahəni tənzimləyən bir sıra qanunvericilik aktlarına əlavə və dəyişikliklək ediləcək*



Ötən həftə parlamentin sosial siyasət komitəsinin ilk iclası keçirilmiş və beş qanuna təklif olunan dəyişikliklər müzakirə edilmişdir. Komitə sədri Hadi Rəcəbli bildirmişdir ki, «Sosial müavinətlər», «Bədən tərbiyəsi və idman», «Sosial sığorta», «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta» haqqında qanunlara və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər olunması təklif edilir. İnzibati Xətalar Məcəlləsinin «İcbari sığorta müqaviləsinin bağlanmaması» adlı maddəsinə təklif olunan müddəada qeyd olunur ki, «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Qanuna əsasən müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslər 500, vəzifəli şəxslər 1500, hüquqi şəxslər 5 min manat məbləğində cərimə olunacaqlar. Bu dəyişiklik qanunun tələblərinə əsasən sığorta olunanlar və sığortalıların hüquqlarının qorunması ilə əlaqədar inzibati məsuliyyətin gücləndirilməsi məqsədini daşıyır. «Bədən tərbiyəsi və idman haqqında» Qanuna isə idman mərc oyunları ilə bağlı yeni müddəa əlavə olunur. Qeyd edilmişdir ki, digər dəyişikliklər redaktə və dəqiqləşdirmə xarakterlidir. Müzakirələrdən sonra təklif olunan bütün dəyişikliklər Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilmişdir.

Aqrar siyasət komitəsinin iclasında millət vəkili Eldar İbrahimov komitənin payız sessiyası üçün nəzərdə tutulmuş qanunvericilik işləri planı barədə məlumat verərək bildirmişdir ki, sessiya ərzində komitədə «Yaşıllıqların mühafizəsi haqqında», «Balıqçılıq haqqında», «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» və bir sıra digər qanunlara dəyişiklik və əlavələr edilməsi barədə sənədlərə baxılacaq.

Daha sonra iclasda iştirak edən Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Şahmərdan Kərimov gündəliyə daxil edilmiş «Seleksiya nailiyyətləri haqqında», «Toxumçuluq haqqında», «Yeyinti məhsulları haqqında», «Üzümçülük və şərabçılıq haqqında», «Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında», «Ekoloji təmiz kənd təsərrüfatı haqqında» qanunlarda nəzərdə tutulan bir sıra dəyişikliklər barədə açıqlama verərək bildirmişdir ki, sənədlər qanunvericilik təşəbbüsü qaydasında ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim edilib. Layihələrdə təklif olunan dəyişikliklərin mahiyyəti geni dəyişdirilmiş və ya modifikasiya olunmuş kənd təsərrüfatı və ərzaq məhsullarının ölkədə istehsalı, idxalı və satışına qoyulan qadağalardan ibarətdir. Məruzəçi burada göstərilən məsələlərin ölkə əhalisinin sağlamlığının qorunması istiqamətində əhəmiyyətini vurğulamış və ölkə rəhbərliyinin bu sahəyə son dərəcədə həssas münasibətindən danışmışdır. Qeyd olunmuşdur ki, adı çəkilən qanunvericilik aktlarına edilən əlavə və dəyişikliklər nəticəsində belə məhsulların ölkəmizə idxalı tamamilə dayandırılacaq.

Geniş fikir mübadiləsindən sonra qanun layihələrinin parlamentin plenar iclasına təqdim edilməsi haqqında qərar qəbul olunmuşdur.

**Rəşad SADIQOV**

# Azərbaycan makroiqtisadi sabitlik səviyyəsinə görə ilk onluqda...

*Dünya İqtisadi Forumunun 2013-2014-cü illər üçün Qlobal Rəqabətlilik Hesabatına əsasən, Azərbaycan rəqabətqabiliyyətlilik indeksi üzrə mövqeyini daha da yaxşılaşdıraraq 148 ölkə arasında 39-cu pillədə qərarlaşıb. Əvvəlki hesabatla müqayisədə mövqeyini 7 bənd yaxşılaşdıran respublikamız Şərqi Avropada ən çox rəqabətə davamlı iqtisadiyyat qurmağa nail olan ölkə kimi səciyyələndirilir. Azərbaycan bu indeks üzrə MDB və türk dövlətləri arasında birinci yerdə qərarlaşıb.*

Azərbaycanın yüksək uğur əldə etməsində makroiqtisadi sektorun daha müsbət və dayanıqlı olduğu bildirilir. Respublikamız makroiqtisadi sabitlik indeksi üzrə mövqeyini son bir ildə 10 pillə yaxşılaşdıraraq 8-ci yerdə qərarlaşıb. Bu, dünya ölkələri üzrə ən yaxşı göstəricilərdən biridir. Ümumiyyətlə, Davos Forumunun hesabatında rəqabətqabiliyyətliliyə təsir göstərən digər indikatorlar mühüm rol oynasa da, əsas indeks kimi makroiqtisadi sabitlik göstəricisi mühüm əhəmiyyət kəsb edir.

Ümumdünya İqtisadi Forumu hesabatın hazırlanmasında Azərbaycan iqtisadiyyatının 2012-ci ildə nümayiş etdirdiyi artım meyilləri və 2013-cü ilin birinci yarısının makroiqtisadi göstəricilərinə istinad edib. Ötən il Azərbaycan iqtisadiyyatında artım və inkişaf prosesləri davam edib, dayanıqlı makroiqtisadi sabitlik hökm sürüb. Ölkə iqtisadiyyatının maliyyə dayanıqlığı daha da güclənib, valyuta ehtiyatlarının əhəmiyyətli artımı baş verib. Hökumətin həyata keçirdiyi düşünülmüş iqtisadi siyasətə uyğun olaraq, makroiqtisadi sabitliyin əsas indikatorlarından hesab edilən inflyasiyanın məqbul səviyyədə saxlanması, manatın məzənnəsinin qorunması, bank-maliyyə sektorunda davamlı inkişaf və dayanıqlılıq təmin olunub. Qeyd olunan hədəflərin reallaşdırılması çərçivəsində iqtisadi qurumların koordinasiyalı fəaliyyəti sayəsində makroiqtisadi və maliyyə sabitliyinin qorunması ilə yanaşı, iqtisadi artıma zəruri dəstək verən stimullaşdırıcı və təşviqedici addımlar atılıb.

Onu da qeyd edək ki, ötən il maliyyə sabitliyi indeksi dünyanın əksər ölkələrində mənfi saldo üzrə qeydə alınıb. Belə ki, qlobal iqtisadiyyatda artım tempinin çox aşağı səviyyədə olması, xüsusilə də Avropanın bir çox ölkələrində maliyyə ehtiyatlarının azalması, büdcə öhdəlikləri ilə bağlı proqramların həyata keçirilməməsi, inflyasiyanın səviyyəsinin artması, avrozona iqtisadiyyatında qeyri-sabitliyin davam etməsi, borc böhranı və digər faktorlar maliyyə sabitliyi risklərinin qalmasına səbəb olub. İnkişaf etmiş ölkələrdə baş verən neqativ iqtisadi proseslər inkişaf etməkdə olan ölkələrə də təsirini göstərib.

Dünyada baş verən mürəkkəb qlobal iqtisadi tendensiyalara baxmayaraq, Azərbaycan iqtisadiyyatı artım dinamikasını davam etdirib. Ötən il ümumi daxili məhsulun 2,2% artımı fonunda iqtisadiyyatın həcmi 54 milyard manata çatıb. İqtisadi artım əsasən qeyri-neft sektorundan (qeyri-neft sektorunda artım 9,7% təşkil edib ki, bu da ümumi artıma nisbətən 4 dəfədən çoxdur) qaynaqlanıb ki, bu da makroiqtisadi sabitliyin möhkəmlənməsində neftdənkənar sahələrin xüsusi rol oynadığını göstərir. İl ərzində orta illik inflyasiya 1,1% təşkil edib. Həyata keçirilən düşünülmüş iqtisadi siyasət, həmçinin, liberallaşmanın struktur və keyfiyyət baxımından dərinləşməsi, sahibkarlığa dövlət dəstəyinin artırılması, rəqabət qabiliyyətinin təmin olunması, iqtisadiyyatın şaxələndirilməsinə stimul verib, ölkəmizin maliyyə qüdrətinin daha da yüksəlməsinə, valyuta rezervlərinin artmasına zəmin yaradıb. İqtisadiyyatın çoxvektorluluğu maliyyə, valyuta və sosial sabitliyin fonunda əhalinin pul gəlirlərinin artmasına, sosial yaşayış imkanlarının yaxşılaşmasına səbəb olub.

2013-cü ilin ötən dövrü ərzində də ölkəmizdə qeydə alınmış makroiqtisadi göstəricilər Avropa ölkələrinin sosial-iqtisadi göstəricilərinə nisbətən daha pozitiv və dinamikdir. Belə ki, cari ilin yanvar-avqust ayları ərzində ölkədə istehsal edilmiş ümumi daxili məhsulun həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,2% artaraq 37,4 milyard manata çatıb. Adambaşına düşən milli məhsulun həcmi isə 3,9% artaraq 4035,7 manat (5143 dollar) təşkil edib. Qeyri-neft sektorunda istehsalın həcmində ikirəqəmli artım tempi davam edib (10,3% ), bu sahənin ÜDM-də xüsusi çəkisi 51,1%-dən 55,2%-dək yüksəlib.

**«Qlobal Rəqabət Qabiliyyəti İndeksi» hesabatlarında Azərbaycanın makroiqtisadi sabitlik göstəricisi**




*Respublikamız makroiqtisadi sabitlik indeksi üzrə mövqeyini son bir ildə 10 pillə yaxşılaşdıraraq 8-ci yerdə qərarlaşıb*

Maliyyə sabitliyinə təsir göstərən əsas amillərdən biri - istehlak qiymətləri indeksinin aşağı düşməsi makroiqtisadi dinamikanın «hərarətlənməsinə» müsbət təsir göstərib. Hesabat dövründə inflyasiyanın 2,2% təşkil etməsi və bunun müqabilində əhalinin real pul gəlirlərinin 10%-ə yaxın artması sosial sahədə dinamikliyi daha da möhkəmləndirib. Eyni zamanda, həyata keçirilən siyasət milli valyutanın məzənnə sabitliyini təmin etməklə daxili istehlak bazarına mənfi təsirləri məhdudlaşdırıb. Manatın məzənnəsi son bir ildə 5 faizdən çox möhkəmlənib ki, bu da makroiqtisadi sabitliyin saxlanmasında, maliyyə sabitliyinin idarə olunmasında, habelə qeyri-neft sektorunun beynəlxalq rəqabət qabiliyyətinin qorunmasında əhəmiyyətli rol oynayır. Məhz bu amilləri nəzərə alan hökumət manatın real effektiv məzənnəsini möhkəmləndirmək üçün orta müddətli dövrdə daha çevik məzənnə rejiminə keçidi nəzərdə tutur.

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatında baş verən artım meyillərinin yüksəlməsi maliyyə və makroiqtisadi sabitlik üzrə ümumdünya indeksinin daha da yaxşılaşmasına güclü zəmin yaradır. Bu gün Azərbaycan makroiqtisadi sabitlik və dayanıqlılıq səviyyəsinə görə dünyada ilk iyirmilikdə, Avropada isə ilk onluqda yer alır.

Azərbaycan hazırda innovasiya yönümlü iqtisadi modeli tətbiq etməkdədir. Əsas hədəflər biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə aidiyyəti dövlət orqanları ilə birgə icazələr sisteminin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması, əmlakın qeydiyyatı, vergilərin ödənişi, xarici ticarətin aparılması, biznesin bağlanması prosesinin asanlaşdırılmasından ibarətdir. Bütün bunlar isə maliyyə sabitliyi potensialının güclənməsinə baza yaradacaq.

**Elbrus CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

# Vergi risklərinin növləri

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur.

Eyni zamanda, Vergi Məcəlləsi ilə müəyyən edilmişdir ki, vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, habelə vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə bu Məcəllə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, vergi ödəmələrini minimallaşdırmaq və vergi yükünü azaltmaq istəyi biznes subyektlərinə xas olan bir əlamətdir. Buna nail olunması üçün bir çox vergi ödəyiciləri vergiləri qanuni, bəziləri isə qeyri-qanuni yollarla azaltmağa çalışırlar. Belə halların olması, yəni bir tərəfdən vergilərin əvəzsiz və məcburi ödəniş olması, digər tərəfdən isə vergi ödənişlərinin minimallaşdırması ilə bağlı vergi ödəyiciləri tərəfindən tədbirlərin görülməsi təsərrüfat subyektlərini vergi riskinə məruz qalmaq təhlükəsi qarşısında qoyur.

*Vergitutma praktikasında vergi riskinin 3 əsas növü fərqləndirilir: maliyyə sanksiyasına məruz qalma riski, cinayət məsuliyyətinə cəlb olunma riski və vergi yükünün artması riski*

Vergi riski dedikdə, vergilərin ödənilməsi və optimallaşdırılması prosesi ilə bağlı vergi ödəyicilərinin maliyyə sanksiyalarına və digər itkilərə məruz qalma təhlükəsinin yaranmasının mümkünlüyü başa düşülür.

Vergitutma praktikasında vergi riskinin 3 əsas növü fərqləndirilir: maliyyə sanksiyasına məruz qalma riski, cinayət məsuliyyətinə cəlb olunma riski və vergi yükünün artması riski.

Maliyyə sanksiyasına məruz qalma riski vergi qanunvericiliyinin tələblərinin vergi ödəyiciləri tərəfindən pozulması ilə əlaqədar meydana çıxır. Demək olar ki, vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyalarının tətbiq olunması vergitutma sahəsində istifadə olunan məsuliyyət tədbirlərinin ən geniş yayılmış növüdür. Təcrübədə maliyyə sanksiyaları əsasən vergi ödəyicilərində keçirilən səyyar vergi yoxlamaları zamanı aşkar olunan vergi hüquqpozmalarına görə tətbiq edilir. Maliyyə sanksiyalarına məruz qalma riskinin əsas xüsusiyyətlərindən biri odur ki, bu riskin meydana çıxması həm vergi ödəyiciləri tərəfindən qanunun tələbləri bilinmədiyi halda, həm də qanun pozuntusuna bilərəkdən yol verilməsi hallarında baş verir. Onu da qeyd etmək lazımdır ki, vergilərin azaldılması və ya gizlədilməsi hallarında maliyyə sanksiyasına məruz qalma vergi ödəyicisini azaldılmış (gizlədilmiş) vergi məbləğini ödəmək öhdəliyinin bərpa olunmasından azad etmir. Həm sanksiyanın, həm də azaldılmış (gizlədilmiş) vergi məbləğinin büdcəyə ödənilməsi, təbii ki, vergi ödəyicisinin maliyyə vəziyyətinin ağırlaşması, o cümlədən iflasa uğramaq riskini də artırmış olur. Bir çox hallarda təsərrüfat subyektinin maliyyə sanksiyasına məruz qalma riski həm də onun vəzifəli şəxslərinin inzibati cəriməyə məruz qalma riskini yaradır.

Təcrübə göstərir ki, maliyyə sanksiyasına məruz qalma riski vergilərin minimallaşdırılmasına çalışan vergi ödəyicilərində daha yüksəkdir. Vergi qanunvericiliyinin tələblərinə daim əməl edən vergi ödəyicilərində isə maliyyə sanksiyasına məruz qalma riski, demək olar ki, çox aşağıdır. Belə vergi ödəyicilərində riskin yaranması yalnız vergilərin hesablanması zamanı yol verilmiş texniki səhvlərə görə baş verə bilər.

Cinayət məsuliyyətinə cəlb olunma riskinin yaranması, maliyyə sanksiyası riskində olduğu kimi, vergi qanunvericiliyinin pozulması halları ilə bağlıdır. Lakin onun əsas xüsusiyyətləri ondan ibarətdir ki, bu riskin yaranması, ilk növbədə, azaldılmış (gizlədilmiş) vergi məbləğinin həddi ilə müəyyən edilir və bu riski təsərrüfat subyektinin vəzifəli şəxsləri daşıyırlar. Cinayət məsuliyyətinə cəlb olunma riskinin aşkarlanması, adətən, səyyar vergi yoxlamaları zamanı baş verir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, azaldılmış və ya gizlədilmiş verginin məbləği 2000 manatdan artıq olduqda, vergi ödəyicisinin vəzifəli şəxsinin cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı ibtidai istintaq aparılır.

Vergi riskinin üçüncü növü olan vergi yükünün artması ilə bağlı risk daha çox uzunmüddətli layihələrin və investisiya qoyuluşlarının həyata keçirilməsi zamanı yarana bilər. Belə riskin yaranmasına əsas səbəblərin yeni vergi növlərinin tətbiq olunması, vergi dərəcələrinin artırılması, vergi güzəşti və azadolmalarının ləğvi aid edilir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Cari ilin 8 ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala **10 milyard 400 milyon manat** vəsait yönəldilmişdir.
- Azərbaycanda sənayenin qeyri-neft bölməsində məhsul istehsalı **2,8%** artmışdır.
- Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin həcminin **4 mlrd. dollara** çatır.
- Hər istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrindən orta hesabla ayda **85,2 manatlıq** ərzaq, **78,8 manatlıq** qeyri-ərzaq malları alır.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# İdxal mallarına tətbiq olunan aksizlər

**_Azərbaycan Respublikasına idxal olunan mallara hansı aksiz dərəcələri tətbiq edilir?_**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 182.2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində istehsal edilən, yaxud idxal olunan mallardan, vergidən azad edilən mallar istisna olunmaqla, aksiz tutulur. Məcəllənin 190.2-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasına idxal edilən aksizli mallara (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) aksizlərin dərəcələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Məcəllənin 190.4-cü maddəsində Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə mühərrikin həcminə uyğun olaraq tətbiq edilən aksiz dərəcələri nəzərdə tutulmuşdur.

Eyni zamanda, «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2000-ci il tarixli 393 nömrəli fərmanına əsasən, Məcəllənin 190.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında» 19 yanvar 2001-ci il tarixli 20 nömrəli qərarı ilə 45 adda respublika ərazisinə idxal olunan mallara tətbiq edilən aksiz dərəcələri müəyyən olunmuşdur.

Həmin qərara əsasən, Azərbaycan Respublikasına idxal olunan spirtli içkilərin, spirtli tinkturaların 1litri üçün, tütün məhsullarının 1000 ədədi üçün, benzin və dizel yanacaqları, yağlar, destilyatlar, təbii asfalt, asfalt süxurları və mineral qatranların 1 tonu üçün müvafiq aksiz dərəcələri tətbiq olunur.

Bundan əlavə, Məcəllənin 185.2-ci maddəsinə müvafiq olaraq, idxal malları üçün (minik avtomobilləri, istirahət və ya idman yaxtaları və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) vergi tutulan əməliyyatın məbləği Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla).

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# 2014-cü il və sonrakı üç il üzrə dövlət büdcəsinin layihəsi Nazirlər Kabinetinə təqdim edilmişdir

*«Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununu rəhbər tutaraq Maliyyə Nazirliyi tərəfindən hazırlanmış 2014-cü il dövlət büdcəsinin və icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri bu günlərdə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.*

Maliyyə Nazirliyindən aldığımız məlumata görə, 2014-cü il və sonrakı üç ildə dövlət büdcəsi layihələrində iqtisadiyyatın prioritet sahələrinin modernləşdirilməsinə və şaxələndirilməsinə, investisiya mühitinin daha da yaxşılaşdırılmasına, vergi və rüsumlar hesabına büdcəyə daxilolmaların artırılmasına, habelə «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında qarşıya qoyulan hədəflərə nail olunmasına diqqət yetirilmişdir. Növbəti illərdə xərclərin əsas prioritetlərini sosial sahə tutacaq. Qarşıdakı illərdə sosial siyasətin davam etdirilməsi, əhalinin rifahının və yaşayış səviyyəsinin, məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, dövlətin müdafiə qabiliyyətinin artırılması, enerji potensialının gücləndirilməsi, içməli su və qaz təchizatı, kanalizasiya və meliorasiya sistemlərinin müasir tələblər səviyyəsində qurulması, kənd yollarının tikintisi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi, investisiya proqramları üçün maliyyə təminatının yaradılması nəzərdə tutulur.

Yeri gəlmişkən onu da qeyd edək ki, son 10 ildə Azərbaycan Respublikasının icmal büdcəsinin xərcləri 13 dəfə, adambaşına düşən xərci isə 11,6 dəfə artmışdır. Dövlət büdcəsinin xərcləri 14,1 dəfə artaraq 1,2 milyard manatdan 17,4 milyard manata çatmış, xərclərin ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi 32,3 faiz təşkil etməklə 15 faiz yüksəlmişdir. Ötən 10 il ərzində ölkə əhalisinin gəlirləri nominal ifadədə 29 milyard manat və yaxud 6,1 dəfə artaraq 2012-ci ildə 34,7 milyard manat olmuşdur.



Son 10 ildə ölkə üzrə ÜDM-in nominal həcmi 7,6 dəfə artmış, ayrı-ayrı illərdə real artım 34,5 faizədək yüksəlmişdir. Bazar iqtisadiyyatı prinsiplərinə əməl edilməsi, iqtisadiyyatın liberallaşdırılması və qeyri-neft sektorunun inkişafının stimullaşdırılması nəticəsində ÜDM-in strukturunda özəl sektorun xüsusi çəkisi 73,3 faizdən 83,5 faizə qalxmışdır.

Cari ilin ötən yeddi ayında isə dövlət büdcəsinə 9.5 milyard manat həcmində, yaxud 2012-ci ilin müvafiq dövründəkindən 17,1 faiz çox vəsait daxil olmuş, bu vaxt ərzində büdcədən 8.7 milyard manat və ya 2012-ci ilin müvafiq dövrünə nisbətən 22,8 faiz çox vəsait xərclənmiş, 794.3 milyon manat məbləğində və ya ÜDM-in 2,9 faizi qədər profisit yaranmışdır. Büdcə vəsaitlərinin 3849,8 milyon manatı (44,1 faizi) iqtisadiyyatın inkişaf etdirilməsinə, 906,5 milyon manatı (10,4 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 839,7 milyon manatı (9,6 faizi) isə təhsil və səhiyyənin maliyyələşdirilməsinə xərclənmişdir. Xərclərin 19 faizini (1657,3 milyon manatını) əhaliyə əməkhaqqı, pensiya və müavinət ödəmələri təşkil etmişdir.

Vergilər Nazirliyinin xətti ilə 2012-ci il ərzində dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 6 milyard 25 milyon 366,5 min manat təşkil etmişdir. Bu məbləğin 37,4 faizi mənfəət vergisinin, 24,6 faizi əlavə dəyər vergisinin, 13,5 faizi fiziki şəxslərin gəlir vergisinin, 7,5 faizi aksizlərin, 17,0 faizi isə digər vergilərin payına düşür. Qeyri-neft-qaz sektoru üzrə 3 milyard 286 milyon 509,7 min manat vəsait daxil olmuşdur ki, bu da 2011-ci ilin müvafiq dövrünə nisbətən 14,5 faiz çoxdur.

2013-cü ilin yanvar-avqust aylarında isə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 4 milyard 486 milyon 614,8 min manat təşkil etmişdir. Bu məbləğin 38,6 faizi mənfəət vergisinin, 24 faizi əlavə dəyər vergisinin, 12 faizi fiziki şəxslərin gəlir vergisinin, 7,6 faizi aksizlərin, 17,8 faizi isə digər vergilərin payına düşür. Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 2 milyard 405 milyon 61,2 min manat vəsait daxil olmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 6,6 faizini təşkil etmişdir.

Bütün bu uğurlar büdcə və vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində aparılmış məqsədyönlü siyasətin növbəti illərdə də davam etdiriləcəyinə əminlik yaradır.

**Rəşad SADIQOV**

***Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Nağdsız ödəniş sisteminin inkişaf perspektivləri», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 44 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata layiq görülmüşdür.***

***Müsabiqədə mükafata layiq yer tutmuş növbəti məqaləni təqdim edirik.***

# Nağdsız ödəniş sisteminin inkişaf istiqamətləri

## Kağız pulun zərəri və ya qeyri-nağd ödənişin üstünlükləri

*İnsanlar arasında ilk maliyyə münasibətlərinin nə vaxt yarandığını söyləmək çətindir. İbtidai-icma quruluşundan bugünə qədər böyük yol qət etmiş alış-veriş münasibətlərində istifadə edilən pul müxtəlif dövrlərdə fərqli formalarda olub. Son vaxtlar isə min illərlə davam edən nağd ödənişlər tədricən tarixin arxivinə gömülməkdədir. Dünya maliyyə sektorunda elmi-texniki tərəqqinin yaratdığı imkanlar bu arzuları reallaşdırmaq gücündədir. Söhbət kağız pulun iştirakı olmadan aparılan hesablaşmalardan gedir.*

***Xarici təcrübəni öyrənmək kifayətdir***

Prezident İlham Əliyev 2012-ci il yanvarın 14-də keçirdiyi müşavirədə bu problemə toxunaraq bildirib ki, ölkədə vergidən yayınanların sayı hələ də kifayət qədərdir: «Azərbaycanda nağdsız ödəmələr çox aşağı səviyyədədir. Bu, böyük problemdir. Bu, bir tərəfdən bu sistemdə şəffaflığın tam təmin edilməsi üçün bizə imkan vermir, eyni zamanda, xoşagəlməz halların mövcudluğunu da şərtləndirir. Hesab edirəm ki, daha da ciddi tədbirlər görülməlidir. Mən təkliflər gözləyirəm ki, nağdsız hesablaşmaların, ödəmələrin sayı artsın. Burada, necə deyərlər, heç bir yeni üsul icad etməməliyik, inkişaf etmiş ölkələrin təcrübələrinə baxmaq kifayətdir».

Prezidentin tapşırıqlarına əsasən Vergilər Nazirliyi öz növbəsində nağdsız ödəmələrin genişləndirilməsi üçün tədbirlər planı hazırlayıb. Nazirlik tərəfindən POS-terminal şəbəkəsinin genişləndirilməsinə ciddi dəstək verilir. Sahibkarlara qeydiyyat ərizələrinin elektron formada göndərilməsi, lazımi sənədlərin toplanması, müvafiq banka təqdim edilməsi məsələlərində yardım olunur, eyni zamanda, maarifləndirmə işləri aparılır.

***Soğan olsun, nağd olsun!***

Nə üçün Azərbaycan vətəndaşları kağız pulla alış-veriş etməyə üstünlük verirlər? Bunu öyrənmək üçün Bakı şəhərində insanlar arasında sorğu keçirdik.

Təqaüdçü Qədir Fətəliyev bildirir ki, pensiya verilən kimi bankomata gedib pulunu çıxarır: «Kasıbın malı göz qabağında olar. Pul bankda qalanda nəsə narahat oluram».

35 yaşlı dülgər Nəzər Əzizov deyir ki, heç bankomatdan necə istifadə edildiyini bilmir: «Biz fəhlə babayıq. Soğan olsun, nağd olsun».

20 yaşlı Nərgiz Cavadova isə tələbədir və nağd alış-veriş edir: «Məndə elə çox pul olmur ki, bank vasitəsilə alış-veriş edim. Amma çox istəyirəm ki, məndə də bank kartı olsun və mağazaya girəndə haqq-hesabı kartla ödəyim».

Azərbaycanın iki kart prosessinq mərkəzindən birinin - «Azərikart»ın təsisçisi Azərbaycan Beynəlxalq Bankının (ABB) mətbuat xidmətindən isə bildiriblər ki, kartla ödənişlərin qiymətinin qalxmasında əsas günahkar ticarət nöqtələridir: «Qaydalara görə, kartla ödəniş zamanı bank 1,5-2 faiz xidmət haqqı tutur. Bu pul müştəridən deyil, mağazadan tutulmalıdır».

Hazırda Azərbaycan bankları nağdsız hesablaşmaları stimullaşdırmaq üçün bir sıra kampaniyalara başlayıblar ki, bunlardan biri bonus kampaniyasıdır. Yəni müştəri hər dəfə kartla alış-veriş etdikdə bonus qazanır və toplanan bonusları sonradan kampaniyanın keçərli olduğu şəbəkələrdə pul əvəzində işlədə bilir. Onu da qeyd edək ki, POS-terminallar pulsuz quraşdırılır və bank aparatla edilən əməliyyatlardan götürdüyü gəlirlə xidmət pulunu çıxarır.

İstisna olunmur ki, yaxın gələcəkdə ölkəmizdə də kartlardan istifadəyə münasibət dəyişəcək və nağdsız ödənişlərin sayı ildən-ilə artacaq. Nəticədə isə həm istehlakçılar, həm də ticarət, xidmət, iaşə sektorunda çalışanlar üçün alış-veriş prosesi xeyli sadələşəcək, daha təhlükəsiz olacaq.

***Ticarət mərkəzləri üçün güzəştlər tətbiq edilsin***

Millət vəkili, iqtisadçı Əli Məsimli hesab edir ki, nağdsız ödənişlərin daha çox aparıldığı ticarət mərkəzləri üçün güzəştlər tətbiq etmək mümkündür. Uduşlu kampaniyalar, mükafatlandırmalar və s. təşviqedici manevrlərdən yararlanmaq olar. Azərbaycanda nağdsız hesablaşmalar hələ ki əməliyyatların 10 faizini təşkil edir. Üzərində ödəniş kartları gəzdirənlər kifayət qədər olsa da, təəssüf ki, əksəriyyət ondan yararlanmır. Əgər vətəndaş kartla alış-verişin üstünlüklərini bilsə, əlbəttə, kağız pula maraq azalacaq. Deməli, bu istiqamətdə əhalidə həvəs yaratmaq üçün uduşlu kampaniyalar, bonus kampaniyaları həyata keçirmək mümkündür. Cənab Prezidentin qeyd etdiyi kimi, qabaqcıl ölklərin təcrübələri öyrənilməlidir».

*Əgər vətəndaş kartla alış-verişin üstünlüklərini bilsə, əlbəttə, kağız pula maraq azalacaq. Deməli, bu istiqamətdə əhalidə həvəs yaratmaq üçünuduşlu kampaniyalar, bonus kampaniyaları həyata keçirmək lazımdır*

***Plastik kartların üstünlükləri***

Mərkəzi Bankdan verilən məlumata görə, əksər POS-terminallar saatlarla istifadəçi üzünə həsrət qalır. Belə terminalları işlək vəziyyətə gətirmək üçün isə nağdsız ödənişlərin aparılmasının üstünlüklərini təkrar-təkrar xatırlatmaq gərəkdir. Plastik kartlar etibarlıdır, istehlakçının hüquqlarının qorunması baxımından əhəmiyyətlidir. Bu zaman ölkədəki maliyyə əməliyyatlarının dəqiq uçotunu aparmaq daha asan olur.

Nağdsız ödənişlərin həcminin artırılması vergitutma bazasının ciddi şəkildə genişlənməsi üçün mühüm mənbədir. Nağdsız hesablaşmalar vergi ödəyiciləri tərəfindən maliyyə təsərrüfat fəaliyyətinin uçotunun düzgün aparılması, vergiyə cəlb olunan gəlirlərin düzgün müəyyən edilməsi və s. məsələləri həll edir.

Vaxta qənaət, üzərində böyük məbləğdə nağd pul daşımaq məcburiyyətinin olmaması, bank üçün isə rəqabət qabiliyyətinin və nüfuzun artması, ödənişə zəmanət, kağız-pul kütləsinin hazırlanma, uçot və emal xərclərinin azalması, fiziki əməyə qənaət kimi üstünlüklər sosial reklamlarda öz əksini tapmalıdır. Həmçinin, kağız puldan az istifadə ekoloji cəhətdən də xeyirlidir. Kağız pulun hazırlanmasına kifayət qədər material və vəsait sərf olunur. Bu əskinaslar həm də potensial mikrob daşıyıcılarıdır. ABŞ-ın tibbi ekspertləri hesab edirlər ki, hər il yüz minlərlə insan kağız pulların bir əldən digər ələ keçməsi zamanı mikroblara yoluxurlar. Həmin mikrobların arasında ciddi xəstəlik yaradanlar da var. Nağdsız hesablaşmaların təşviq edilməsində, həmçinin, media qurumlarının imkanlarından da yararlanmaq lazımdır.

***Beynəlxalq təcrübə***

İsveçin yaxın vaxtlarda kağız puldan tamamilə imtina edəcəyi gözlənilir. Ümumiyyətlə, dünyada kağız pulla vidalaşma prosesi çox sürətlə gedir. Hazırda nağd pul İsveçdəki maliyyə dövriyyəsinin cəmi 3 faizini təşkil edir. Avropa Birliyində bu göstərici 9 faizdir. Qeyd olunur ki, kağız pulların sayının azalması ilə ölkədə cinayətkarlığın sayı da azalır (təbii ki, kiber-cinayətkarlıq istisna olmaqla). 2008-ci ildə İsveçdə 110 dəfə bank yarmağa cəhd olunub. 2012-ci ildə isə bu rəqəm cəmi 16-ya düşüb. Küçə soyğunçuluğunun sayı da azalıb.

Pul kütləsinin azalması ənənəvi olaraq nağd ödənişlərə üstünlüyün verildiyi kölgə iqtisadiyyatına da ciddi zərbə endirib. Bir sıra digər Avropada da analoji addımlar atılır. İnkişaf etmiş ölkələrdə, o cümlədən ABŞ və Avropa ölkələrində alqı-satqı əməliyyatlarının təqribən 80-90 faizi plastik kartlar vasitəsilə həyata keçirilir. Bu əməliyyatlar nəticəsində həmin ölkələrdə inflyasiyanın qarşısının alınmasında pul kütləsinin rolu minimuma endirilib və büdcə xərcləri xeyli azaldılıb.

Xarici ölkələrdə yüksək məbləğdə alış-veriş həyata keçirən tərəflərin maliyyə əməliyyatlarını nağdsız həyata keçirməsi tələb olunur. Əks təqdirdə, hər iki tərəfi sanksiya gözləyir.

Məsələn, İspaniyada nağd hesablaşmaların maksimum həddi 2500 avro, Bolqarıstanda 7500 avro, İtaliyada 1000 avro, Yunanıstanda 1500 avro, Çexiyada 15.000 avro, Argentinada 2310 dollar, Meksikada isə 38.750 dollardır. ABŞ-da irihəcmli nağd hesablaşmalar qadağan olunmur. Ancaq hər bir bank 10 min dollardan yuxarı depozit, mübadilə və ya pul çıxarma barədə hökumətə məlumat verməyə borcludur. Qanunu pozanlar verilən və alınan nağd pulun 20-30 faizi qədərində cərimələnir, hətta həbs də olunurlar. Burada məqsəd çirkli pulların və vergidən yayınmanın qarşısını almaqdır.

Dünyada kiçik həcmli maliyyə əməliyyatlarını aparmaq üçün NFC əsaslı sim-kartlardan, «PayPass» və «payWave» proqramlarından da istifadə olunur.

Çin, Tayvan, Malta, Gürcüstan, Puerto Riko, Zambiya kimi ölkələrdə nağdsız ödənişlər aparanlar üçün uduşlu lotereyalar oynanılır.

**Ruslan XƏLİL,**
***«Gündəlik Teleqraf» qəzeti***

# Azərbaycan dinamik iqtisadi inkişafı ilə regionun liderinə çevrilib

## Beynəlxalq Qara Dəniz Araşdırmaları Mərkəzi respublikamızdakı islahatları yüksək dəyərləndirir

*Sosial-iqtisadi modernləşmənin yeni keyfiyyət mərhələsinə uğurla transformasiya edən Azərbaycanın bütövlükdə regionda nüfuzlu dövlətlərdən birinə çevrilməsi, ilk növbədə, elmi əsaslar üzərində irəli sürülmüş milli iqtisadi inkişaf modelinə əsaslanır. Bu da təsadüfi deyil ki, Cənubi Qafqaz geoiqtisadi məkanında cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan dünyanın aparıcı maliyyə-iqtisadi qurumları, o cümlədən nüfuzlu reytinq agentlikləri hesabatlarında Azərbaycanı regionda yüksək investisiya cəlbediciliyinə və makroiqtisadi sabitliyə malik ölkə kimi səciyyələndirirlər.*

Bu günlərdə ABŞ-ın «The United Press International» qəzetində və «The Economist» jurnalında Azərbaycandakı sosial-iqtisadi inkişafı əks etdirən yazılar dərc olunub. Dünyanın tanınmış beyin mərkəzlərindən biri sayılan Beynəlxalq Qara Dəniz Araşdırmaları Mərkəzinin Azərbaycanla bağlı bu günlərdə yaydığı geniş hesabat isə ölkəmizin son 10 ildə əldə etdiyi iqtisadi uğuraların beynəlxalq səviyyədə yüksək dəyərləndirildiyinə dəlalət edir.

«Azərbaycanın regional lider kimi yüksəlişi: inkişaf və davamlılıq» adlı hesabatda respublikamızın inkişaf və rəqabətqabiliyyətlilik, yoxsulluğun aradan qaldırılması, adambaşına düşən ümummilli gəlirin artımı sahələrində mühüm nailiyyətlər əldə etdiyi vurğulanır. Hesabatda respublikamızın Birləşmiş Millətlər Təşkilatının «İnsan inkişafı indeksi»nə görə yüksək insan inkişafı ölkələri qrupunda yer aldığı da qeyd olunur, həmçinin göstərilir ki, Dünya İqtisadi Forumunun «Qlobal Qəqabət Qabiliyyəti İndeksi» 2013-2014» reytinqinə əsasən, Azərbaycan dünya ölkələri arasında 39-cu yerə yüksəlib.

Hesabatda vurğulandığı kimi, regionların inkişafı ilə bağlı 2004-2008 və 2009-2013-cü illəri əhatə edən dövlət proqramları bölgələrdə kütləvi işsizlik problemini də aradan qaldırılıb. Birinci proqram əsasında 700 min, ikinci proqram çərçivəsində 361 min yeni iş yeri açılıb. Ümumilikdə, ötən 10 ildə Azərbaycanda açılmış 1 milyon 100 mindən çox yeni iş yerinin təxminən 700 mindən çoxu bölgələrin payına düşür. 2003-cü ildə ölkədə işsizliyin səviyyəsi 28 faiz civarında idisə, 2013-cü ilin birinci yarısının yekunlarına görə 5,15 faiz təşkil edib.

Həyata keçirilən regional inkişaf tədbirləri nəticəsində 10 il ərzində qeyri-neft sektoru 2,7 dəfə artıb. 2012-ci ildə vergi daxilolmaları 6,0 milyard manat təşkil edərək 2003-cü illə müqayisədə 7,3 dəfə artıb. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində Vergilər Nazirliyində ərazi vergilər idarələri üzrə 2012-ci ildə daxilolmalar 445,5 milyon manat təşkil edib və bu da 2003-cü illə müqayisədə 11,8 dəfə çoxdur.

Son 10 ildə Azərbaycan iqtisadi cəhətdən sabit və özünəinamlı ölkəyə çevrilib. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, 2003-cü ildən respublikada büdcə gəlirlərinin orta illik artımı 20-30% təşkil edib və bu da regionda ən yüksək göstəricilərdən sayılır. 2003-cü ildə Azərbaycanın dövlət büdcəsi təxminən 1,5 milyard dollar civarında olduğu halda, hazırda 25 milyard dollar təşkil edir. 2012-ci ildə dövlət büdcəsinin gəlirləri 2003-cü illə müqayisədə 14,2 dəfə artıb. Azərbaycanın büdcəsi hazırda Cənubi Qafqazın ümumi büdcəsinin 76%-ni təşkil edir.

Respublikamız 2003-cü ildə adambaşına düşən ümumi daxili məhsulun həcminə görə dünya ölkələri sırasında 90-cı yerdə qərar tutmuşdu.Həmin vaxt Azərbaycanda istehsal olunan ÜDM-in adambaşına düşən həcmi nominal ifadədə cəmi 873 manat (təqribən 1100 ABŞ dolları) təşkil edirdisə, hazırda bu rəqəm 8000 dollara yaxınlaşır. 2003-2013-cü illəri əhatə edən dövr ərzində ölkədə ÜDM istehsalı ildə orta hesabla 13,6 faiz artıb və onun həcminin nominal ifadədə 56 milyard manat təşkil edəcəyi gözlənilir. Bu isə adambaşına düşən ÜDM-in həcminin nominal ifadədə 6200 manatı (təqribən 8000 ABŞ dolları) keçəcəyi deməkdir.

2003-cü ildə Azərbaycanda mühüm makroiqtisadi göstəricilərdən olan strateji valyuta ehtiyatlarının həcmi 1,6 milyard ABŞ dollarına yaxın idi. 2003-2013-cü illər ərzində ölkənin strateji valyuta ehtiyatları ildə orta hesabla 30 dəfə artıb. 2013-cü ilin birinci yarısının yekunlarına görə, ölkənin strateji valyuta ehtiyatları 48 milyard ABŞ dollarına (Mərkəzi Bankın və Dövlət Neft Fondunun ehtiyatlarının cəmi) çatıb. Hazırda strateji valyuta ehtiyatları 3 illik idxalın və xidmətlərin maliyyələşdirilməsinə kifayət edir. Bu isə iqtisadi təhlükəsizlik baxımından dünya miqyasında ən yaxşı göstəricilərdən sayılır.

Azərbaycanın strateji valyuta ehtiyatları hazırda xarici dövlət borcunu 10 dəfə üstələyir. Təkcə Mərkəzi Bankın ehtiyatları 13 milyard ABŞ dollarını keçib və bu, bir il ərzində mal və xidmətlərin idxalı üçün yetərlidir. Ölkənin strateji valyuta ehtiyatlarının ÜDM-ə nisbəti 70%-ə yaxındır və bu da inkişaf etmiş dövlətlər içərisində ən yaxşı göstəricilərdən biridir. Respublikamız strateji valyuta ehtiyatlarının ÜDM-ə nisbətinə görə dünyada ilk 15 dövlət sırasındadır.

Digər mühüm bir göstərici Azərbaycanın strateji valyuta ehtiyatlarının formalaşmasında neft amilinin rolunun getdikcə azalmasıdır. Son 2 ildə ölkədə neft istehsalının və nəqlinin azalmasına baxmayaraq, strateji valyuta ehtiyatları artmaqda davam etmişdir. 2013-cü ilin sonunda ölkənin strateji valyuta ehtiyatlarının 50 milyard ABŞ dollarını keçəcəyi proqnozlaşdırılır.

Sənəddə, həmçinin, vurğulanır ki, iqtisadiyyatın şaxələndirilməsini və qeyri-neft sektorunun inkişafını qarşıya məqsəd qoyan «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası çərçivəsində nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları, kənd təsərrüfatı və turizm sahələri yeni prioritet sahələr elan edilib. Hesabatda göstərilir ki, Azərbaycan öz əlverişli coğrafi mövqeyindən istifadə etməklə Avrasiyanın mərkəzində, Avropa ilə Asiya arasında önəmli ticarət dəhlizinə çevrilmək istəyir.

Onu da bildirək ki, Beynəlxalq Qara Dəniz Araşdırmaları Mərkəzi həm müstəqil beyin mərkəzi, həm də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının bir qurumu olmaqla, istər mərkəzi ofisinin yerləşdiyi Yunanıstanda, istərsə də geniş Qara dəniz regionunda nüfuzlu və təsirli beynəlxalq beyin mərkəzlərindən biri sayılır.

**S.MUSTAFAYEV**

# Nağdsız ödənişlərin inkişafına dəstək

*Dünyanın ən mötəbər maliyyə strukturlarından olan Asiya İnkişaf Bankı (AİB) bu ilin sonuna kimi Azərbaycanla yeni beşillik əməkdaşlıq strategiyasını imzalamağı planlaşdırır. 2014-2018-ci illərə dair strateji konsepsiyanın əsas detallarını Azərbaycan hökuməti ilə müzakirə edən bankın Direktorlar Şurası bütün məsələlər üzrə birgə razılığa gəlib.*

AİB-in icraçı direktoru Antoni Beyker bildirib ki, yeni sənəd tərəflər arasında ötən dövr ərzində mövcud olan sıx və səmərəli əməkdaşlıq platformasının başlıca təməllərinə əsaslanaraq, müasir iqtisadi meyarların tələblərinə uyğun yanaşmaları özündə əks etdirəcək.

A.Beykerin sözlərinə görə, Azərbaycanda həyata keçirilən islahatlar ölkə iqtisadiyyatının modernləşməsinə səbəb olub, qeyri-neft sektorunda, o cümlədən maliyyə-bank sistemində mühüm dəyişikliklər baş verib, müasir texnologiyaların tətbiqi sayəsində iqtisadiyyatın strukturu yenilənib. İnformasiya texnologiyalarından geniş istifadə idarəetmənin çevik və müasir tələblər əsasında qurulmasını təmin etməkdədir. Ölkədə şəffaflığın təmin olunmasına güclü zəmin yaradan antikorrupsiya tədbirləri, «Elektron hökumət» quruculuğu iqtisadi islahatların davamlılığına və idarəetmənin səmərəliliyinə təkan verən amillərdəndir. Asiya Bankı bu meyarları nəzərə alaraq, Azərbaycan hökuməti ilə qarşıdakı illərdə əməkdaşlığı daha çox qeyri-neft sektoruna və innovativ layihələrə dəstək prinsipləri əsasında davam etdirəcək.

Yeni əməkdaşlıq strategiyasının əsas istiqamətlərindən biri Azərbaycanın bank sektoruna maliyyə və texniki dəstəyin gücləndirilməsindən ibarətdir. Kommersiya banklarının mikromaliyyələşdirilməsi çərçivəsində onların istehlak bazarına çıxış imkanlarının artırılması üçün müxtəlif stimullaşdırıcı alətlərdən istifadənin tətbiqi nəzərdə tutulur. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında nağdsız ödənişlərin inkişafı və bu istiqamətdə bankların üzərinə düşən vəzifələrlə tanış olan AİB-in ekspertləri nağdsız iqtisadiyyatın qurulmasını fəaliyyət strategiyasının yeni prioriteti hesab edir. Asiya Bankı bu məqsədlə bank sektorunda nağdsız ödənişlərin genişləndirilməsinə dəstək göstərmək niyyətindədir. AİB Azərbaycan hökumətinin nağdsız ödənişlərin inkişafına dair hazırladığı yeni Dövlət Proqramının əsas müddəaları ilə də tanış olub və banklarla əməkdaşlıqda həmin sənəddən irəli gələn məsələlərə yer veriləcək.

Azərbaycanda nağdsız ödənişlər bazarının vəziyyəti ilə yaxından tanış olduqlarını və Mərkəzi Bankla, prosessinq şirkətləri və digər qurumların nümayəndələri ilə bu istiqamətdə səmərəli müzakirələr apardıqlarını vurğulayan cənab Beyker bankların kart infrastrukturunun, xidmətlər şəbəkəsinin gücləndirilməsi üçün bəzi tədbirlərin görülməsi məqsədilə təkliflər verdiklərini bildirib. Azərbaycanın nağdsız ödənişlər bazarı barədə nikbinliyini bildirən AİB rəsmisi hökumətin bu sahədə düşünülmüş, sistemli tədbirlər həyata keçirməsini müsbət dəyərləndirib. Qeyd edib ki, Azərbaycanda plastik kartlar sektoru sürətlə inkişaf edir və bu, bank sistemi üçün deyil, bütün iqtisadiyyat üçün müsbət amildir. Hesablaşmalarda kartlardan istifadənin genişlənməsi bütövlükdə iqtisadiyyat üçün böyük fayda verə bilər. Ona görə də bu sahədə daha böyük dövriyyəyə nail olmaq üçün bankların üzərinə ciddi vəzifələr düşür: onlar ticarət və xidmət sahəsində, xüsusən də kiçik və orta ticarətdə stimullaşdırıcı tədbirləri genişləndirməlidir. Eyni zamanda, istehlakçılar arasında kartların alış-veriş və xidmətlər üçün etibarlı ödəniş aləti və nağd pula rahat alternativ olması ilə bağlı təbliğatın gücləndirilməsi zəruridir.



AİB Ticarətin Maliyyələşdirmə Mexanizmi Proqramı (TMMP) çərçivəsində əməkdaşlıq etdiyi bankların sırasını genişləndirməyi, onların bazara yeni bank çeşidləri təqdim etməsi üçün müvafiq planların həyata keçiriləcəyini bildirir. Nağdsız ödənişlərin inkişafına dəstək layihəsi çərçivəsində bankların maliyyə resurslarının artırılması fonunda istehlak bazarına çıxışı təşviq edən kampaniyaların genişləndirilməsi, ticarət strukturları ilə sıx işbirliyinin yaradılması və bununla da elektron ticarət sisteminin rentabelliliyinin təmin olunması əsas məqsədlərdəndir. Bu sahədə aktivliyi artırmaq üçün Asiyanın inkişaf etmiş ölkələrində tətbiq olunan bəzi tədbirlərin Azərbaycanda da həyata keçirilməsi məqsədəuyğun hesab edilir. Bununla yanaşı, debet kartlarının bütün növ xidmət sektorlarında istifadəsi üçün layihələrin reallaşdırılması, layihə çərçivəsində həmin kartlardan kommunal, yanacaq, enerji və digər xidmətlərin ödənişlərindən əlavə, idman, turizm, əyləncə, digər istehlak-iaşə obyektlərində istifadə olunması nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# İpoteka kreditlərinin şərtləri sadələşdiriləcək

## Yeni strategiya hökumətə təqdim edilib

*Ölkə əhalisinin, xüsusilə də gənc ailələrin mənzil probleminin həllində ipoteka kreditlərinin verilməsinin böyük rolu var.*

Ev almaq istəyində olan vətəndaşlar bu fürsətdən Azərbaycan İpoteka Fondunun yaradılmasından sonra yararlana bildilər. Qeyd edək ki, ilk ipoteka kreditləri 2006-cı ildə verilmişdir. 2007-ci ilin statistikasına görə, həmin ilin may ayına qədər vətəndaşlara 1000-ci ipoteka krediti verilmişdir. Bundan sonra isə bir müddət ipoteka kreditlərinin verilməsi dayandırılmışdır. 2009-cu ilin iyunundan etibarən isə ipoteka kreditlərinin verilməsi bərpa edilmişdir...

***İpoteka sahəsində artım var***

Bildirək ki, Azərbaycan İpoteka Fondunun müvəkkil kredit təşkilatları tərəfindən verilmiş ipoteka kreditlərini yenidən maliyyələşdirmək, yenidən maliyyələşdirilən ipoteka kreditlərinə dair tələbləri müəyyən etmək, maliyyə vəsaitlərinin cəlb olunması məqsədilə ipoteka ilə təmin olunmuş qiymətli kağızlar emissiya etmək, ipoteka kreditləşməsi sahəsində likvidliyin təmin olunması və fonda ucuz maliyyə resurslarının cəlb olunması məqsədilə öz səlahiyyətləri daxilində tədbirlər görmək kimi funksiyaları var.

Fondun xətti ilə bu ilin yanvar-avqust aylarında 78,16 milyon manat məbləğində kredit verilib ki, bu da ötən il ərzində verilən kreditlərdən çoxdur. 2012-ci ildə verilən ipoteka kreditlərinin həcmi 74.77 milyon manat olmuşdur. Bu ilin yanvar-avqust ayları ərzində bankların əvvəllər ayırdığı kreditlərin yenidən maliyyələşdirilməsinin ümumi həcmi isə 44,98 milyon manat təşkil edib. İpoteka kreditləri alanların yaş həddinə gəlincə, sentyabrın 2-nə olan vəziyyətə görə 18-29 yaş arası olanlar 37 faiz, 30-35 yaş arasında olanlar 36%, 36 yaşdan yuxarı olanlar isə 27% təşkil edib.

Qeyd edək ki, AİF xətti ilə maliyyələşdirməyə başlanandan indiyədək (2006-cı ildən 2013-cü ilin avqustuna qədər) 498.39 milyon manatdan çox ipoteka krediti ayrılıb.

***Yeniliklər gözlənilir...***

Ölkədə ev almaq iqtidarında olmayan insanların sayının kifayət qədər çox olması ipoteka kreditlərinə olan tələbatı artırır. Hazırda adi ipoteka kreditləri üçün maksimal məbləğ 50 min, güzəştli ipoteka kreditləri üçün isə 35 min manatdır. Maksimal illik faiz dərəcəsi isə adi ipoteka kreditləri üçün 8%, güzəştli ipoteka kreditləri üçün 4%-dir. Maksimal müddət adi ipoteka kreditləri üçün 25 il, güzəştli ipoteka kreditləri üçün 30 ildir. İlkin ödəniş isə müvafiq olaraq 20%, 15%-dir. Lakin ipoteka şərtlərinin bu səviyyədə olması heç də bütün təbəqələr üçün əlçatan deyil. Bunu nəzərə alaraq, ötən ildən ipoteka kreditlərinin verilməsi şərtlərinin sadələşdiriləcəyi barədə Mərkəzi Bank rəsmilərinin mətbuata açıqlamaları yer alırdı. Belə ki, ipoteka kreditlərindən hər bir ailənin istifadə edə bilməsi üçün həm məbləğlərin artırılacağı, sosial ipotekadan istifadə imkanı əldə edəcək insanların siyahısının genişləndiriləcəyi, həm də faiz dərəcələrinin aşağı salınacağı gözlənilirdi. Bu günlərdə Mərkəzi Bankın sədri Elman Rüstəmovun mətbuata verdiyi açıqlamaya görə bu problemin həllinin az bir zamanda mümkün olmasına ümidləri artırdı. MB sədrinin sözlərinə görə, ölkədə ipotekanın təkmilləşdirilməsi strategiyası hazırlanaraq hökumətə təqdim edilib. Proqramın əsas məqamlarından biri ipotekanın, o cümlədən sosial ipotekanın sadələşdirilməsidir. O qeyd edib ki, burada söhbət təkcə faiz dərəcələri və ya müddətlərdən deyil, həmçinin ipotekanın yeni modelinin tətbiq edilməsindən gedir. Bu model sosial ipotekanın əhalinin yığımları hesabına ipotekaya çıxışlarının təmin edilməsi, ekonom sinifli evlərin tikintisi və ipoteka üsulu ilə satılmasını nəzərdə tutur.

**AYTƏN**

# Əhalinin orta aylıq gəlirləri yüksəlir

*Son illərdə respublikamızda bütün sahələrdə gedən inkişaf dinamikası özünü sosial-iqtisadi sahədə də qabarıq şəkildə göstərir.*

Bu illərdə ölkədə makroiqtisadi sabitliyə, nəzərəçarpacaq iqtisadi artıma nail olunmuşdur. Ölkə əhalisinin yoxsulluq səviyyəsinin azaldılması, maddi rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Dövlət başçısı tərəfindən ötən illər ərzində minimum əməkhaqqı, pensiya və müavinətlərin, maaşların qaldırılması ilə bağlı imzaladığı sərəncamların bu istiqamətdə mühüm rolu olmuşdur.

Ötən 10 il ərzində iqtisadiyyatın inkişaf templərinin artması, milli valyutanın sabitliyinin təmin edilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin qurulması, yeni iş yerlərinin açılması əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına şərait yaratmışdır. Ölkənin sosial-iqtisadi sahələrdə əldə etdiyi nailiyyətlər beynəlxalq reytinq agentliklərinin hesabatlarında da öz əksini tapmışdır.

Azərbaycan hökumətinin əsas məqsədlərindən olan vətəndaşların keyfiyyətli sosial yaşayışının təmin edilməsi istiqamətində hər il dövlət tərəfindən siyasi iradə nümayiş etdirilir. Belə ki, maliyyə resurslarının əsas xərc istiqaməti kimi vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması, mövcud sosial problemlərinin həlli yolunun tapılması durur. Bu məqsədlə son dövrlərdə sosial sahədə gücləndirilmiş tədbirlər həyata keçirilmişdir. Son günlərdə ölkə başçısının müvafiq sərəncamları əsasında büdcə təşkilatlarında çalışan işçilərin əməkhaqlarının artımı, əhalinin sosial qayğıya ən çox ehtiyacı olan təbəqəsini təşkil edən qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətin həcminin artırılması, respublikanın sosial-iqtisadi inkişafında xidmətlərinə və yüksək peşə ustalığına görə fəxri adlara layiq görülmüş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin artırılması ilə bağlı tədbirlər insanların sosial rifahının yüksəldilməsi üzrə atılan növbəti addımlardandır. Zaman-zaman əhalinin aylıq əməkhaqlarının artırılması iqtisadiyyatın bütün sahələrində çalışan insanların gəlirlərində əhəmiyyətli artımın müşahidə olunmasına səbəb olmuşdur. Əhalinin orta aylıq əməkhaqqının artım dinamikasının inflyasiya həddini bir neçə dəfə üstələməsi insanların sosial yaşayış imkanlarına müsbət təsir göstərib.

> Ölkə əhalisinin yoxsulluq səviyyəsinin azaldılması, maddi rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır

Dövlət Statistika Komitəsinin açıqladığı məlumatda da yuxarıda sadaladığımız məqamların izi görünür: bu ilin yanvar-iyul ayları ərzində ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 412,7 manat təşkil edib. Bu isə keçən ilin müvafiq dövrünə nisbətən 6,9 faiz çoxdur. Digər fəaliyyət növləri ilə müqayisədə mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyətində, informasiya və rabitədə, peşə, elmi və texniki fəaliyyət sahəsində, tikintidə, inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Mühasibat və vergi uçotunun fərqli xüsusiyyətləri
### *Müvəqqəti və daimi fərqlər*

*Əvvəli ötən sayımızda*

Məlumdur ki, mühasibat uçotu və vergi uçotu arasındakı fərqlər daimi və müvəqqəti ola bilər. Daimi fərqlər - bəzi gəlir və ya xərc məbləğlərinin maliyyə hesabatları məqsədləri üçün (mühasibat uçotunda) tanındığı halda vergi məqsədləri üçün (vergi uçotunda) heç vaxt tanınmadığına (nəzərə alınmadığına) görə yaranan fərq məbləğləridir.

Daimi fərqlərin də yaranmasına səbəb, müvəqqəti fərqlərdə olduğu kimi, Vergi Məcəlləsinin müddəalarının tələbləridir. Vergi Məcəlləsinin tələblərinə görə, bəzi xərclər «gəlirdən çıxılmayan» və «gəlirdən nisbətən məhdudlaşdırılmaqla çıxılan» xərclər kimi təsnifləşdirilib. Belə xərclər Vergi Məcəlləsinin aşağıda göstərilən maddələrinin tələbləri nəticəsində vergi tutulan mənfəətin hesablanmasında nəzərə alınan xərclərə heç vaxt aid edilmədiyinə görə, uçot mənfəəti ilə müqayisədə daimi fərqlər yaradır:

Maddə 109.2 - Qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər. Bu xərclərə gəlir götürmək məqsədinə yönəldilməyən xərcləri, məsələn, qrant xərclərini aid etmək olar.

Maddə 109.3 - Əyləncə və yemək xərcləri, habelə işçilərin mənzil və digər sosial xarakterli xərcləri. Məsələn, bayram şənliyinin təşkili, bayram hədiyyələrinin alınması, konsert proqramlarının keçirilməsi, idman tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı xərclərin vergi hesablanan gəlirlərdən çıxılmasına yol verilmir.

Maddə 109.7 - Faktiki ezamiyyə xərclərinin normadan artıq olan hissəsi. Bu məsələ ilə bağlı bəzi vergi ödəyiciləri birtərəfli mövqe bildirirlər, yəni ezamiyyə xərclərinin yalnız norma daxilində olan hissəsi vergi uçotunda olduğu kimi mühasibat uçotunda da xərclərə aid edilir, həmçinin normadan artıq hissəsi uçot mənfəəti hesablandıqdan sonra digər ehtiyat mənbələr hesabına və ya xalis mənfəətin azaldılmasına yönəldilir. Bunu praktikada mühasibat qaydalarının pozulması halı kimi qəbul etməsələr də, mühasibat uçotu standartlarının tələbləri ezamiyyə xərclərinin normadan artıq hissəsinin mühasibat uçotunda birbaşa xərclərə, yəni administrativ xərclərə və ya məhsulun, satışın maya dəyərinə aid edilməsini inkar etmir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli «Ezamiyyə xərclərinin normaları haqqında» Qərarı işçiyə ödənilən ümumi ezamiyyə xərclərinin ödənilən məbləğinin tərkibindən vergitutma məqsədləri üçün gəlirdən çıxılan xərclərə aid edilən hissəni müəyyənləşdirir. Ümumiyyətlə, normalar ezamiyyə ödənişlərinin ölçüsünü məhdudlaşdırmır və faktiki, hətta böyük məbləğdə sənəd əsasında çəkilmiş ezamiyyə xərclərinin tam məbləği mülkiyyətçinin müstəqil olaraq təsdiqlədiyi uçot siyasətinə uyğun olaraq uçot mənfəətinin hesablanmasında nəzərə alınan xərclərə aid edilə bilər, lakin vergitutma məqsədləri üçün bu xərc məhdudlaşdırıldığına görə, məhdudlaşdırılan hissədən artıq olan hissə qədər iki uçot arasında daimi fərq yaranacaqdır.

Maddə 110 - Xaricdən alınmış borclar üzrə faizlərin banklararası kredit hərracında olan faizlərin orta səviyyəsinin 125 faizdən artıq olan hissəsi.

Maddə 116.1 - Öz işçilərinin və əmlakın zərərdən sığortalanması, habelə xarici sığortaçılar ilə bağlanmış həyat sığortası müqavilələri üzrə sığorta haqları.

Maddə 119.1.1 - Azərbaycan Respublikasının və ya digər dövlətlərin ərazilərində ödənilmiş mənfəət vergisi və ya gəlirdən hesablanan hər hansı digər vergi.

Maddə 119.1.2 - Vergi Məcəlləsi və digər qanunlarla müəyyən edilmiş qaydada hesablanmış faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr. Daimi fərqlər inzibati (səlahiyyətli) dövlət orqanları tərəfindən aktlaşdırılmaqla və ya protokollaşdırılmaqla vergi ödəyicisinə tətbiq olunan faizlər, maliyyə sanksiyaları və inzibati cərimələrin vergi uçotundakı xərclərə aid edilməməsinə görə yaranır. Lakin gəlirin əldə edilməsi ilə bağlı mülki hüquq müqavilələri üzrə faizlər, dəbbə pulu (cərimə), icranın gecikdirilməsi ilə əlaqədar vurulmuş zərərin əvəzinin ödənilməsi və digər analoji cərimələr vergitutma məqsədləri üçün gəlirdən çıxıla bilər. Başqa cür desək, Vergi Məcəlləsinin 13.2.12-ci maddəsinə əsasən şərhi verilən «satışdankənar gəlirlər» anlayışı üzrə digər tərəflərə cərimə və zərərin ödənilməsi şəklində verilmiş məbləğlər vergi mənfəətinin hesablanmasında xərclərə aid edilə bilər.

Maddə 122.2 - Dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulmuşdursa, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəliri. Əldə edilən dividend gəlirləri mənfəət vergisinin bəyannaməsində informasiya xarakterli məlumat kimi hesabat dövrünün gəlirləri hissəsində və eyni zamanda ümumi gəlirdən çıxılmalarda göstərildiyinə görə, yekun olaraq ümumi gəlirlərdə təzahür etmir. Lakin mühasibat uçotu üzrə mənfəət və zərərlər haqqında hesabatda dividend gəlirlərinin hesablanmış məbləğləri tam olaraq gəlirlərdə əks etdirilir və beləliklə də bu hesabatda göstərilən dividend gəlirləri qədər iki uçot arasında daimi fərq yaranacaq.

*Davamı növbəti sayımızda*

# Vergi ödəyicilərinə xidmət mərkəzləri

*Vergilər Nazirliyi tərəfindən göstərilən xidmətlərin hər bir vergi ödəyicisi üçün əlçatan olmasını təmin etmək, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə vergi ödəyiciləri üçün xidmət mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlər regionlarda, vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinin ixtiyarına verilib.*

**Vergi ödəyicilərinə göstərilən xidmətlər...**

Xidmət mərkəzlərinin əsas məqsədi həmin regionda fəaliyyət göstərən vergi ödəyicilərinə müasir standartlara uyğun ödənişsiz vergi xidmətlərinin göstərilməsidir.

Bu mərkəzlərdə vergi ödəyicilərinə vergi qanunvericiliyi və qanunvericilikdə edilən dəyişikliklər, qüvvədə olan vergilər, onların hesablanması və ödənilməsi qaydaları, vergi bəyannamələrinin tərtib edilməsi və təqdim olunma müddətləri, vergi orqanlarında qeydiyyat məsələləri, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri haqqında məlumat və izahatlar verilir. Vergi ödəyiciləri tərəfindən müraciət olduqda bəyannamələrin, hesabatların, ərizələrin və digər sənədlərin düzgün tərtib edilməsinə və göndərilməsinə köməklik edilir, Vergilər Nazirliyi tərəfindən tətbiq edilən elektron xidmətlər göstərilir. Həmçinin, fiziki və hüquqi şəxslərin elektron qeydiyyatının aparılması, NKA-nın, təsərrüfat subyektinin qeydiyyata alınması və qeydiyyatdan çıxarılması, fəaliyyətin bərpası, dayandırılması, xitam verilməsi, uçot məlumatlarında dəyişiklik, bəyannamələrin, hesabat və arayışların göndərilməsi, bankda hesabın açılması, e-vergi hesab-fakturalarının göndərilməsi, məktub və ərizələrin göndərilməsi və s. üzrə köməklik göstərilir.

Eyni zamanda Vergilər Nazirliyinin internet səhifəsində və İnternet Vergi İdarəsində yaradılan xidmətlər barədə məlumat verilir, e-bəyannamə, «Onlayn kargüzarlıq» və digər elektron xidmətlərdən istifadə qaydaları tədris edilir. Son zamanlar «Asan imza» xidməti də mərkəzlərin fəaliyyət istiqamətlərindən birinə çevrilib.

**Xidmət mərkəzlərində vergi ödəyiciləri üçün hər cür şərait var**

Xidmət mərkəzləri müasir kompüter və avadanlıqlarla, sürətli kommunikasiya sistemi ilə təchiz edilib. Xidmət mərkəzinin sahəsi, avadanlıqlar və işçilərin sayı mərkəzin yerləşdiyi rayon və şəhərlərdə fəaliyyət göstərən vergi ödəyicilərinin sayına, iqtisadi potensialına əsasən müəyyən edilir. Mərkəzlər eyni zamanda bir neçə vergi ödəyicisinin qəbulu, suallarının cavablandırılması, sənədlərin tərtibatı və onlara müvafiq izahatların verilməsi, kiçik qrup halında treninqlərin keçirilməsi üçün «dəyirmi masa»lar və s. ilə təmin edilir. Xidmətlər Vergilər Nazirliyinin aidiyyəti vergi orqanının müvafiq strukturunun əməkdaşı tərəfindən həyata keçirilir.

Hazırda ölkədə 40 vergi ödəyicilərinə xidmət mərkəzi fəaliyyət göstərir.

**Müraciət olunan xidmətlərin statistikası**

Bu ilin yanvar-avqust ayları ərzində xidmət mərkəzləri tərəfindən 100 min 55 vergi ödəyicisinə xidmət göstərilib. Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsindən verilən məlumata görə, bəyannamələrin elektron formada göndərilməsi (51048), hesabat, ərizə, arayış və digər sənədlərin tərtib edilməsi (15733), fəaliyyətlə bağlı digər ərizə, arayış və sənədlərin elektron göndərilməsi (5267), şəxsi hesab vərəqəsi və vergi borcu üzrə xidmətlərdən (64316) daha çox istifadə olunub.

**AYTƏN**



*Mərkəzlərdə 8 ay ərzində 100 min 55 vergi ödəyicisinə xidmət göstərilib*

# «Ən yaxşı film sinopsisi» müsabiqəsi

*Aprel ayında həvəskar və peşəkar ssenaristlərin stimullaşdırılması və vergi ödəmələrinin bədii təbliğatı məqsədilə Vergilər Nazirliyinin rəsmi «Facebook» səhifəsində «Ən yaxşı film sinopsisi» adlı müsabiqəyə start verilmişdir.*

Müsabiqənin şərtləri kifayət qədər loyal olsa da, müəyyən şərtlərə iştirakçıların əməl etmələri vacib hesab olunurdu. Belə ki, ssenarinin mövzusu sırf vergiyə aid olmamalı, bir obraz vergi işçisi kimi göstərilə bilər, janr etibarilə döyüş, fantastika, komediya olmamalı və ara zarafatlarına, yersiz təbliğata yer verilməməli idi.




Peşəkar münsif heyətinin iştirak etdiyi müsabiqəyə sentyabrın 6-da yekun vurulmuşdur. Çingiz Abdullayev, Natiq Rəsulzadə, Rəşad Məcid, Nigar Köçərli, Rəhman Hacıyev, Azər Qərib və Elçin Səfərlinin münsifliyi ilə qalib müəyyən edilmiş və «Əli və Nino» kitab evində mükafatlandırma mərasimi keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan «Əli və Nino» kitab evinin rəhbəri Nigar Köçərli münsiflər heyətinin adından tədbir iştirakçılarını salamlamışdır. Layihənin rəhbəri, Vergilər Nazirliyinin Vergi Ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov çıxışında müsabiqənin bütün iştirakçılarına təşəkkürünü bildirmiş, onların hər birinə Vergilər Nazirliyi adından rəmzi xatirə hədiyyələri təqdim etmişdir. Elçin Məmmədov gələcəkdə də belə layihələrin və bu səpkili müsabiqələrin davam etdiriləcəyi barədə tədbir iştirakçılarına məlumat vermişdir. Müsabiqənin qalibi Anar Əzimov hazırladığı sinopsis barədə qonaqlara qısa məlumat verərək, bu layihədə əməyi keçən hər kəsə və xüsusilə də müsabiqəyə verdiyi dəstəyə görə Vergilər Nazirliyinə təşəkkürünü bildirmişdir.

vergi təqvimi

**SENTYABR**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | | **1** |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | **8** |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | **15** |
| 16 | 17 | 18 | 19 | **20** | 21 | **22** |
| 23/30 | 27 | 28 | 29 | 30 | 28 | **29** |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

20 sentyabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməlidirlər.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Vergidən yayındığına görə barəsində cinayət işi açılan sahibkarların əksəriyyətinin normal illik gəlirləri olsa da, bu qazanc onlara bəs etmirmiş kimi, dövlət büdcəsinə ödəniləsi vergilərə də tamah salırlar. Dövlətin puluna göz dikən sahibkarlar vergiləri məqsədli şəkildə ödəməyərək başqa sahələrə yönəldir, bunun yaxşı sonluqla qurtarmayacağına sanki məhəl qoymaq istəmirlər. Sonda isə cəmiyyətdə qazandıqları sahibkar imici və biznesləri alt-üst olur, bəzən isə həbsə düşürlər. Sahibkar Bəhlul Ağayevin cinayət məsuliyyətinə cəlb olunmasına da səbəb vergi qanunvericiliyinin tələblərini pozmasıdır.

B.Ağayev özü üçün kifayət qədər gəlir gətirən biznes qurub. Rəhbəri olduğu «Səbail» MMC-nin fəaliyyəti bir neçə sahəni əhatə edib. Müəssisənin sahibi tikinti-məişət mallarının alqı-satqısından tutmuş, danışıq kartlarının ticarətinə kimi, müxtəlif işlərlə məşğul olub. MMC-nin mühasibi olmayıb, sahibkar mühasibatlıq işlərini bacaran yaxın dostlarından birini qeyri-rəsmi şəkildə müəssisəyə cəlb edərək hesabatlar hazırlayıb. Məsələ ondadır ki, həmin sənədlər yalnız bank hesabları və digər sənədlərdən ibarət olub, B.Ağayev vergiyə aid sənədlərin hazırlanmasını dostuna qadağan edib. Bununla da MMC-yə 3 illik rəhbərliyi dövründə Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.6, 72, 77.3, 78.1, 152 və 177-ci maddələrinin tələblərini pozub. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları tərəfindən aparılan araşdırmalar zamanı müəyyən olunub ki, B.Ağayev fəaliyyətinin ilk dövründə mənfəət vergisi üzrə bəyannaməni vergi orqanına göndərməyib, sonralar isə vergi bəyannamələrini bilə-bilə təhrif olunmuş formada təqdim edib. Müəssisənin ƏDV ilə bağlı hesabatları isə tamamilə saxtalaşdırılıb. Beləliklə, B.Ağayevin yol verdiyi bu qanun pozuntuları 20 min manata yaxın vəsaitin (19.667) dövlət büdcəsindən yayındırılmasına səbəb olub.

Törətdiyi hərəkətlərə görə həbs edilən Bəhlul Ağayev barəsində Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə cinayət işi açılıb. Aparılan istintaq zamanı sahibkar vergidən yayındığını açıq şəkildə etiraf edərək müəssisənin yaxşı gəlirinin olduğunu, amma maliyyə problemləri səbəbindən dövlət büdcəsinə ödəniləsi məbləğləri şəxsi işlərinə sərf etdiyini təsdiqləyib. Beləliklə, istintaq zamanı müəyyən edilmiş hallar iş materialları, o cümlədən B.Ağayevin etirafı, çoxsaylı şahid ifadələri, ekspertiza rəyləri və digər faktlarla tam sübuta yetirilib.

Aparılan istintaq hərəkətlərinin davam etdirilməsi məqsədilə sahibkar barəsində cinayət işi baxılması üçün son instansiya olaraq Biləsuvar rayon məhkəməsinə göndərilib. Həmin məhkəmənin qərarı ilə B.Ağayev dövlət və yerli özünüidarəetmə orqanlarında vəzifə tutmaq qadağan olunmaqla 1,6 ay azadlıqdan məhrum edilib.

**ELBRUS**

beynəlxalq panoram

# Dünya ölkələri ekoloji səmərəliliyi vergi güzəştləri ilə stimullaşdırır

*KPMG şirkətinin məsləhətçiləri dünyanın 21 ölkəsində vergi güzəştləri və cərimələr vasitəsilə şirkətlərin ekoloji səmərəliliyinin stimullaşdırılması təcrübəsini təhlil ediblər. Tədqiqata cəlb edilən ölkələr dünyada korporativ investisiyaların əsas hissəsini həyata keçirirlər.*




Tədqiqat zamanı bütövlükdə ekoloji fəallığı stimullaşdıran iki yüz növ vergi stimulları aşkar edilib. Stimullar enerji səmərəliliyi siyasətində doqquz sahə arasında paylanıb. Bunlar iqlim dəyişiklikləri, innovasiyalar, bərpa olunan enerji və yanacaq sahəsi, tikinti, avtomobil istehsalı, sudan istifadə, material səmərəliliyi və tullantıların idarə edilməsi, ətraf mühitin çirkləndirilməsinə nəzarət və ekosistemlərin müdafiəsi sahələridir.

Ekspertlər «yaşıl vergilər»in indeksi və onların istifadəsində ölkələrin fəallığının reytinqini tədqiq ediblər. KPMG şirkəti bildirib ki, tədqiqatlarında ekoloji səmərəliliyə birmənalı qiymət verməyib, sadəcə investorlara bu sferada mövcud olan ümumi vəziyyəti təqdim etməyə çalışıb.

Tədqiqatlara görə, bu sahədə lider ABŞ-dır. Bu ölkə enerji səmərəliliyinin artırılması, ekoloji tikinti və bərpa olunan enerji sahəsinə yönəli investisiyaların dəstəklənməsi üçün fəal federal vergi siyasəti tətbiq edir.

Liderlər sırasında həmçinin Yaponiya, Fransa, Cənubi Koreya və Çin də vardır. Əgər ABŞ və Cənubi Koreyanın vergi siyasəti daha çox stimulların verilməsinə istiqamətlənibsə, Fransada cərimələrə yönəlib, Yaponiya və Çin isə balanslaşdırılmış siyasətə üstünlük verirlər. İkinci qrup ölkələr sırasında İrlandiya, Niderland, Belçika, Hindistan, Kanada və İspaniya gəlir. Onlar bu sahədə vergi siyasətindən daha az istifadə edirlər. Üçüncü qrup ölkələr - Avstraliya, CAR, Almaniya, Finlandiya və Sinqapur vergi siyasətindən orta dərəcədə istifadə edir, lakin ixtisaslaşdırılmış fondlar vasitəsilə korporativ proqramları fəal maliyyələşdirirlər.

Dördüncü qrupda Braziliya, Argentina, Meksika və Rusiya yer alır. Bu ölkələr, demək olar ki, ekoloji siyasətin dəstəklənməsində vergi siyasətindən istifadə etmirlər. Yalnız Rusiya Federasiyası bu qrupda yeganə dövlətdir ki, su resurslarından istifadə prosesində vergi cərimələri sistemindən, enerji səmərəliliyinin stimullaşdırılması prosesində isə vergi güzəştlərindən istifadə edir.

# İsveçrədə vergi məlumatlarının mübadilə sistemi tətbiq ediləcək

*Vergi məlumatlarının mübadiləsinə dair hökumətin qəbul etdiyi protokol qeyri-rezidentlərin vergi öhdəlikləri ilə bağlı ölkənin maliyyə institutları ilə ABŞ-ın vergi orqanları arasında yaranan mübahisələrin həllində rəhbər sənəd olmalıdır.*

Yeni sistem müəyyən edir ki, milli banklar istintaq və məhkəmə hərəkətləri üçün vergi məlumatlarını açmaq zərurəti ilə bağlı İsveçrə hökumətinə müraciət edə bilərlər. Lakin bu zaman onlar öz müştərilərinin adını aça bilməzlər, müştəri məlumatları ilə işləyən xarici məsləhətçilər barədə məlumatları isə təqdim edə bilərlər. İsveçrə hökumətinin fikrincə, bu qayda ABŞ-la bağlanmış analoji razılaşmaların şərtləri ilə tam uyğundur.

Hazırda ABŞ-ın vergi orqanları 14 İsveçrə bankı ilə bağlı araşdırmalar aparır. Həmin banklar vergilərin ödənilməsindən yayınan ABŞ vətəndaşlarına yardım etməkdə şübhəli bilinirlər. İsveçrə hökuməti hesab edir ki, yeni sistem vergi məlumatlarının mübadilə sahəsində Birləşmiş Ştatlarla əməkdaşlığa müsbət təsir göstərəcək.

# Britaniyada könüllü «xəbərçilər» vergi xidmətinə kömək edir

*Britaniyanın vergi ödəyiciləri öz həmyerlilərinin vergi öhdəliklərini diqqətlə izləyir və həvəslə onların vergi hüquqpozmaları haqqında məlumatları anonim şəkildə vergi xidmətinə çatdırırlar.*

Son 12 ay ərzində Britaniyanın Vergi və Gömrük Xidməti ölkə vətəndaşları tərəfindən vergi hüquqpozmalarına yol verilməsinə dair 72 minədək anonim telefon zəngi alıb (hər gün təxminən 200 məlumat). Bu məlumat Britaniyanın «Bloomsbury Professional» mühasibat şirkətinin təhlillərində göstərilir.

«Bloomsbury Professional» şirkətinin meneceri Martin Kazimir izah edir ki, həmvətənlərinin bu fəallığı Britaniya cəmiyyətində vergi ödəmələrindən yayınma hallarına olan neqativ münasibətin sosial əksidir. Onun fikrincə, «son illər bir çox insanların əməkhaqqı azalıb, əvəzində isə vergi yükü artıb. Bu isə insanları vergidən yayınma hallarına münasibətdə daha həssas olmağa vadar edib və vergi xidmətinə müvafiq məlumatları çatdırmağa maraq oyadıb».



Lakin vətəndaşların bu fəallığına baxmayaraq, vergi xidmətinə könüllü yardım ölkə büdcəsinə əhəmiyyətli maliyyə vəsaitləri gətirmir. Hazırda belə məlumatların alınması üçün telefon xidmətinin saxlanması xərcləri, demək olar ki, əlavə vergi yığımlarının tən yarısını təşkil edir. Şirkətin təhlilində belə məlumatlar nəticəsində aşkar edilmiş vergi cinayətlərinin həcmi barədə məlumat verilmir, lakin qeyd edilir ki, vətəndaşların verdikləri məlumatların böyük hissəsi xırda vergi hüquqpozmaları ilə bağlıdır ki, onların da araşdırılmasına çəkilən xərclər potensial vergi gəlirlərini örtmür.

# İƏİT vergi optimallaşdırılmasına qarşı mübarizəyə başlayır

*İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) beynəlxalq şirkətlər tərəfindən gəlirlərin leqal vasitələrlə vergidən yayındırılması ilə mübarizə sahəsində çoxdan gözlənən iş planını (BEPS layihəsi) hazırlayıb. Söhbət vergilərin ödənilməsindən tam həcmdə yayınmaq məqsədilə qanunvericilikdə olan boşluqlardan və başqa qanuni metodlardan istifadə etməyə, yəni vergilərin optimallaşdırması adlanan siyasətə praktik olaraq «müharibə» elan edilməsindən gedir. Belə vasitələrdən əksər hallarda «Apple» və ya «Google» kimi texnologiya sektorunun böyük şirkətləri istifadə edir.*

İƏİT tərəfindən hazırlanmış sənəddə şirkətlərin gəlirləri vergi ödəmədən offşor zonalara keçirməsinə qarşı milli və beynəlxalq səviyyələrdə qəbul edilə biləcək tədbirlər göstərilir.

Nəzərdə tutulur ki, gələcəkdə korporasiyalar vergiləri qeydiyyatdan keçdikləri yuridiksiyalarda deyil, xidmət göstərdikləri və ya məhsul istehsal etdikləri yurisdiksiyada ödəməyə məcbur edilsinlər. «BEPS layihəsi beynəlxalq vergi kooperasiyası tarixində böyük dönüş anıdır», - İƏİT-in məruzəsində vurğulanır.

Sənəddə şirkətlərin vergiləri optimallaşdırmaq üçün istifadə etdiyi bütün alətlər ətraflı təhlil edilib. Bunların sırasında faiz dərəcələri, patent yığımları, şirkətlərin korporativdaxili hesablaşmalarda tətbiq etdiyi qiymət xüsusiyyətləri və müxtəlif ölkələrin vergi qanunvericiliklərindəki fərqlərdən məqsədyönlü istifadə məsələləri yer alır.

Təşkilat korporasiyaları maliyyə orqanları qarşısında şəffaflıq səviyyəsini yüksəltməyə, vergilərin ödənilməsi zamanı xərclərin optimallaşdırması üçün istifadə olunan alətlər barədə vergi orqanlarını məlumatlandırmağa məcbur etmək niyyətindədir.

İƏİT sənəddə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin konkret müddətlərini də müəyyən edir. Belə ki, 2014-cü ilin sentyabrına qədər internet-şirkətlərin vergiyə cəlb edilməsi konsepsiyası hazırlanmalıdır. Hazırda belə şirkətlərin vergiyə cəlb edilməsi xüsusilə aktualdır. Bir il sonra isə vergi sistemlərində aparılacaq islahatlara dair tövsiyələr hazırlanacaq.




*İƏİT - dünyanın aparıcı iqtisadi təşkilatlarından biridir. Hazırda təşkilatın üzvləri sırasına Avstraliya, Avstriya, Belçika, Böyük Britaniya, Macarıstan, Almaniya, Yunanıstan, Danimarka, İsrail, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Kanada, Lüksemburq, Meksika, Niderland, Yeni Zelandiya, Norveç, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, ABŞ, Türkiyə, Finlandiya, Fransa, Çexiya, Çili, İsveçrə, İsveç, Estoniya, Cənubi Koreya və Yaponiya kimi ölkələr daxildir.*

krossvord




**Yuxarıdan aşağı:**

1.Afrikanın zəngin memarlıq, mədəniyyət nümunələri və təbiət mənzərələrinə malik ən böyük şəhərlərindən biri; 2.Xaçmaz rayonunda kənd; 3.Cənubi İtaliyada əyalət və şəhər; 4.1982-1998-ci illərdə Almaniya kanslerinin soyadı; 5.Hündürlüyü 4-5, bəzən 9 metrə çatan, taxıllar fəsiləsindən çoxillik bitki cinsi. Tropik ölkələrdə 7 növü, Azərbaycanda isə bir növü yayılıb; 6.Mineral; 7.$C_6H_6$ düsturu olan, üzvi maddələr sinfinə daxil iysiz maye; 11.Çox populyar, sərbəst paylanan və «Microsoft Windows»a güclü bir alternativ təşkil edən azad və açıq mənbəli əməliyyat sistemi *(ingiliscə yazılışı)*; 13.1992-ci ildə «Quzuların sükutu» filmində yaratdığı kannibal-manyak obrazına görə «Oskar» mükafatına layiq görülmüş aktyorun soyadı; 15.Məşhur Azərbaycan bəstəkarının soyadı - «İldırımlı yollarla» baletinin müəllifi; 16.Vətəni İngiltərə olan 11 nəfərdən ibarət 2 komanda arasında oynanan oyun; 17.Hind mifologiyasında səadət və gözəllik ilahəsi; 18.Avtobus markası *(ingiliscə yazılışı)*; 20.Vudu inanc sistemində ölümsüz insan; 22.Orta Asiya respublikalarında pul vahidi.

**Soldan sağa:**

1.Kişi geyimində aksessuar; 5.Nazik, aypara formalı yuxa içərisində göy, ət və ya bağça məhsulları içi olan qədim türk yeməyi; 8.Azərbaycanın xalq qəhrəmanı Qaçaq Nəbinin həyat yoldaşı və silahdaşı; 9.Avtomobilin kuzov növü; 10.Antioksidant xassəli vitamin; 12.Dünyanın ən varlı şəxslərindən biri. «Microsoft» şirkətinin yaradıcısının adı; 14.Sümüklər arasında əlaqəni təmin edən birləşmə yeri; 16.Genetik baxımdan identik hüceyrə və organizm; 19.Müstəsna istedad; 21.Avtomobilin ən aşağı nöqtəsindən yerə qədər olan məsafə; 23.Qabaqkimilər fəsiləsinin xiyar cinsinə aid tərəvəz növü; 24.Tanınmış şəxslərin mum fiqurlarının saxlandığı muzeyin sahibi, - Madam ... ; 25.Afrikada ada-dövlət.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**
1.Əlincə; 2.Diler; 3.Bahadır *(Mehralı oğlu)*; 4.LAZ; 5.Qafan; 6.Sürpriz; 7.Renium; 11.Nikon; 13.Vitamin; 15.Tixonov *(Vyaçeslav)*; 16.Əbukir; 17.Avropa; 18.Zorro; 20.Məkan; 22.Nil.

**Soldan sağa:**
1.Ərdəbil; 5.Qusar; 8.İslah; 9.Zəfəran; 10.Cırtdan; 12.Riom; 14.Raket; 16.Əniq; 19.Naximov; 21.Kameron; 23.Nikko; 24.Ranço; 25.Lavanda.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# Beynəlxalq turnirdə möhtəşəm qələbə



*Sentyabrın 22-də Bakıdakı «Sərhədçi» Olimpiya İdman Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş kikboksinq üzrə beynəlxalq turnir keçirilmişdir.*

Rəsmi hissə başa çatdıqdan sonra Türkiyədən dəvət olunmuş məşhur müğənnilər konsert proqramı ilə çıxış etmişlər. Yarışı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva da izləmişdir.

Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə Azərbaycan idmançıları Eduard Məmmədov (63 kq) Yaqub Bersanukayevə (Rusiya), Elnur Dəryagir (63 kq) Semir Deliçə (Bosniya və Herseqovina), Turan Qafarov (67 kq) Aleks Vayta (ABŞ), Araz Pirməmmədov (71 kq) Fabiano Antonio da Silvaya (Braziliya), Ramal Aslanov (71 kq) Vitali Farxutdinova (Ukrayna), Pərviz Abdullayev (73 kq) Konstantin Pasniçusa (Rumıniya), Anar Məmmədov (91 kq) Mesud selimoviçə (Bosniya və Herseqovina), Ağalar Sadıxzadə (91 kq) Timur Bekturganova (Qazaxıstan), Zamiq Atakişiyev (91 kq) isə Qalimjan Utegenova (Qazaxıstan) qalib gəlmişlər.

Günün ən gözlənilən görüşü 91 kiloqramlar yuxarı çəki dərəcəsində milli komandamızın üzvü Zabit Səmədov və serbiyalı Droqan Yavanoviç arasında keçirilmişdir. Hər üç raundda rəqibindən üstün olan Z.Səmədov görüşünü qələbə ilə bitirmişdir. Milli komandamızın üzvlərindən T.Qafarov, R.Aslanov və A.Sadıxzadə görüşlərini nokautla başa vurmuşlar. Kikboksinqçilərimizdən yalnız 84 kiloqram çəki dərəcəsində mübarizə aparmış Xəyal Əhmədov hollandiyalı idmançı Niels Vilminkə məğlub olmuşdur.

# «Tour of China 1» beynəlxalq velosiped yarışının qalibi «Synergy Baku Cycling Project» komandasının idmançısı olub

*Azərbaycan velosipedçiləri Çində təşkil edilən «Tour of China» (UCI kat. 2.1) çoxgünlük beynəlxalq velosiped yarışında növbəti uğura imza atıblar.*

6 mərhələdən ibarət olan yarış Azərbaycanın «Synergy Baku Cycling Project» komandasının zəfəri ilə yekunlaşıb. Belə ki, komandamızın velosipedçisi Kiril Pozdnyakov 6-cı mərhələnin qalibi olmaqla bərabər, həm də ümumi nəticələrə əsasən «Tour of China 1» yarışında birinci yerə layiq görülüb.

Xatırladırıq ki, «Synergy Baku Cycling Project» komandasının digər velosipedçisi Anuar Manan bu yarışın 2-ci mərhələsində fəxri kürsünün 3-cü pilləsinə qalxa bilmişdi.

Sentyabrın 24-30 tarixlərində Çində növbəti - «Tour of China 2» beynəlxalq velosiped yarışı da keçiriləcəkdir. «Synergy Baku Cycling Project» komandasını bu yarışda Aqşin İsmayılov, Kiril Pozdnyakov, Konnor Makkonvi, Anuar Manan, Riko Rocers və Aleksandr Surutkoviç təmsil edəcəklər.

Sentyabrın 24-29 tarixlərində isə İtaliyanın Florensiya şəhərində velosiped idmanı üzrə dünya çempionatı keçiriləcəkdir. Yarışda Azərbaycan 4 idmançı ilə təmsil olunacaqdır.




«Elit» idmançılarının yarışında Elçin Əsədov 56,8 km məsafədə yarışacaqdır. 23 yaşlılar arasında mübarizədə isə Samir Cəbrayılov 42,79 km məsafədə öz qüvvəsini sınayacaqdır. Yuniorların yarışında 25,34 km məsafədə həmyerlilərimiz Elgün Əlizadə və Nicat Niftəliyev mübarizə aparacaqlar.

# Səmti Müəyyən Etmə İdman Federasiyasının növbəti tədbiri

Sentyabr ayının 20-22 tarixlərində Azərbaycan Respublikası Səmti Müəyyən Etmə İdman Federasiyasının təşkilatçılığı ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin səmti müəyyən etmə idman növü üzrə I qapalı çempionatı keçirilmişdir. Şamaxı rayonunun Pirqulu qəsəbəsində (Vergilər Nazirliyinin Tədris Mərkəzi) keçirilmiş yarışda 23 komanda və eləcə də şəxsi hesabda idmançılar qüvvələrini sınamışlar.

İki gün davam edən gərgin mübarizədən sonra komanda hesabında Bakı Regional Mərkəzinin komandası fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Gümüş və bürünc medalları isə, müvafiq olaraq, Muğan Regional Mərkəzinin və Dövlət Sularında Xilasetmə Xidmətinin komandaları əldə etmişlər.

Sonda Fövqəladə Hallar Nazirliyinin I qapalı çempionatını yüksək səviyyədə təşkil etdiyi üçün Səmti Müəyyən Etmə İdman Federasiyası «Tədbir medalı» ilə təltif edilmişdir.

mozaika

## Fərdi kompüter satışı azalır

texnologiya

*IDC analitik şirkətinin məlumatına əsasən, 2013-cü ildə fərdi kompüterlərin qlobal tədarük həcmi gözlənildiyindən daha çox azalıb.*

İnkişaf etmiş ölkələrdə olduğu kimi, inkişaf etməkdə olan bazarın istehlakçıları da mobil qurğularla daha çox maraqlanırlar. 2013-cü ildə qlobal bazara ötən illə müqayisədə 9,7% daha az fərdi kompüter tədarük edilib. Qeyd edək ki, IDC analitik şirkətinin may ayında dərc edilmiş əvvəlki proqnozunda bu rəqəm 7,8% həcmində qiymətləndirilirdi. Sözügedən bazarın gələn il də azalmağa doğru gedəcəyi, yalnız 2015-ci ildən sonra cüzi artım qeydə alınacağı proqnozlaşdırılır.



IDC analitik şirkətinin proqnozuna əsasən, 2013-cü ildə 15.4 milyon fərdi kompüter tədarük olunacaq. Onun 134.4 milyonunu masaüstü, 181 milyonunu yığcam kompüterlər təşkil edəcək.

## 110 nüvəli prosessor yaradıldı



***ABŞ-ın Massaçusets Texnologiya İnstitutunun mühəndisləri 110 hesablama nüvəsindən ibarət prosessor həllini təqdim ediblər.***

45 nanometrlik texnologiya üzrə hazırlanmış Execution Migraine Machine adlı 10 millimetr ölçüsündə çip hesablama proseslərində nüvələrin qarşılıqlı təsirinin ətraflı şəkildə araşdırılması üçün yaradılıb.

Milli.Az ICTnews-a istinadən bildirir ki, alimlər yeni prosessorun köməkliyi ilə ənənəvi prosessorların məhsuldarlıq və enerji səmərəliliyinin artırılması imkanlarını araşdırmaq istəyirlər.

## Mühəndislər «ağıllı» qaşıq yaratdılar



*Amerikanın «Liftware Spoon» şirkəti Parkinson və bəzi başqa xəstəliklərdən əziyyət çəkən insanlar üçün nəzərdə tutulmuş «ağıllı» qaşıq hazırlayıb.*

Qurğu insan əlinin titrəməsini tarazlaşdırır və beləliklə, qaşıqda olan yeməyin sıçramasının qarşısını alır. Titrəmənin qarşısını alan sözügedən texnologiya ilk öncə hərbi məqsədlər üçün işlənib hazırlanıb.

Milli.Az ICTnews.az-a istinadən bildirir ki, «Liftware» qaşığı ona quraşdırılmış sensorların köməkliyi ilə daima istifadəçinin əl hərəkətlərini izləyir və qulpuna yerləşdirilmiş motorlar sayəsində öz vəziyyətini həm üfüqi, həm də şaquli sabitləşdirir. Şirkət nümayəndələrinin sözlərinə görə, bu qaşıq yaxın günlərdə satışa çıxarılacaq.

## Göyçayda hind narı bağı

sağlam həyat tərzi

*Ölkəmizdə ilk dəfə olaraq hind narı yetişdirən Göyçay sakini Rafiq Xəlilov bir çox xəstəliklərin dərmanı olan bu meyvənin bağını xeyli genişləndirmişdir.*

Dünyada hind narı kimi tanınan, türklərin «Qüdrət narı» adlandır yeni sort da bunlardan biridir.

R.Xəlilov demişdir ki, narın toxumları Hindistandan gətirilmişdir. Toxumlar əvvəlcə xüsusi qablarda yetişdirilmiş, sonra əldə olunan şitillər bağ torpağına köçürülmüşdür. Hazırda təsərrüfatda 70 ədəd hind narı ağacı vardır. Başqa sortlarla müqayisədə tez yetişən hind narı qeyri-adi görünüşə, dada və rəngə malikdir. Hind narının dənələri qırmızı olsa da, adi nar dənələrindən böyükdür. Hind narı ötən il Göyçayda keçirilən nar bayramında nümayiş etdirilmişdir. Bu ilin noyabrında Göyçayda təşkil olunacaq növbəti nar bayramında hind narı ictimaiyyətə daha geniş şəkildə təqdim olunacaqdır.



Otuz ildən çoxdur ki, bağbanlıq edən R.Xəlilov öz təsərrüfatında 100-dən çox ağacın müxtəlif sortlarını yetişdirmişdir.

## Məşhur tunel turistlər üçün açılıb

memarlıq inciləri

*La-Manş boğazı altındakı tunel ilk dəfə olaraq turistlər üçün açılıb. «Deyli meyl» qəzetinin verdiyi məlumata görə, turistlər artıq sentyabrın 14-də və 15-də Kent qraflığında yerləşən «Folkstoun» terminalında olublar.*



Arzu edən hər kəs müasir dövrün ən məşhur tunelinə gələrkən adətən yalnız xidmət heyəti üçün əlyetərli olan zonalara baş çəkmək, terminalın dispetçer otağını, platformaları və idarəetmə mərkəzini görmək imkanı əldə edə biləcəklər.

Bundan əlavə, turistlər tunelin xidmət heyəti ilə görüşə biləcəklər.

Kontinental Avropanı Böyük Britaniya ilə birləşdirən tunelin ümumi uzunluğu 51 kilometr, o cümlədən bilavasitə La-Manşın altında qalan hissənin uzunluğu 39 kilometrdir. Kanal 1994-cü ildə açılmışdır. Bu müddətdə ondan təxminən 300 milyon nəfər istifadə etmişdir. Turistlərin bu əlamətdar məkana ziyarəti Avropa İrs Günləri proqramının tərkib hissəsinə çevrilmişdir.

1984-cü ildə Fransa Avropa Mədəniyyət Konvensiyasını imzalamış bir ölkə kimi təklif etmişdir ki, adətən turistlər üçün qapalı sayılan muzeylərin qapıları açılsın, müxtəlif tarixi binalara daxil olmağa icazə verilsin.

Avropa İrs Günləri rəsmən 1991-ci ildə Avropa Komissiyasının dəstəyi ilə Avropa Şurası tərəfindən təşkil edilmişdir.

**Müdriklər deyib ki...**

***«Bilməkdən qorxma, səhv bilməkdən qorx! Çünki bütün fəlakətlər ondan başlayır».***

***Lev Nikolayeviç Tolstoy (1828-1910)***

